**Günəş Şərqdən doğur!**

❒ № 39 (5320), 2021-ci il

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

Qiyməti 40 qəpik

www.sherg.az 2 mart 2021-ci il (çərşənbə axşamı)




## Daha 125 nəfər koronavirusa yoluxub

71 nəfər sağalıb, 3 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 125 yeni yoluxma faktı qeydə alınıb, 71 nəfər müalicə olunaraq sağalıb.

(Səh.9)

## Tabutu gələn günü atası qurban kəsib

Düşmən Orxanın nəşini əsir götürüb və 72 gün saxlayıb



İkinci Qarabağ müharibəsində Vətənə layiq əsgərlər savaşdılar. Son nəfəslərinə qədər millət, torpaq dedilər. Qan tökdülər, can verdilər, qazi olub, şəhadətə ucaldılar.

Orxan Cəfərli də onlardan biridir, millət uğrunda şəhid olanlardandır.

(Səh.8)

**Günün içindən...**



## “Ermənistan rəhbərlərinin məsuliyyətinə çox ümid edirik”

Matviyenko: “Qarabağa dair sazişə zidd hər hansı hərəkət böyük faciəyə gətirib çıxara bilər”

**Rusiya İrəvandakı hadisələrdən asılı olmayaraq, Ermənistanın Dağlıq Qarabağla bağlı üçtərəfli sazişə riayət edəcəyinə ümid edir.**

Bunu RİA ”Novosti” agentliyinə müsahibəsində Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko bildirib.

(səh.2)

# Paşinyan payızda referenduma gedir



## Ermənistan parlament üsul-idarəsindən imtina etməyə hazırlaşır

Ermənistanın baş naziri Nikol Paşinyan hesab edir ki, silahlı qüvvələrin baş qərargah rəisinin onun istefası barədə bəyanatı sabiq prezident Serj Sarkisyanın təsirinin nəticəsidir. Paşinyan bunu dünən Respublika meydanında keçirilən mitinq zamanı bildirib.

(səh.8)

# Tramvaylar Bakıya qayıda bilər

## Böyük maliyyə lazımdır, amma unikal layihədir




(səh.9)

✓ **Yuva qururlar...**
Xankəndi və Xocavənddə rus sülhməramlılarına şəhərcik salınıb (səh.4)

✓ **“Üçüncü Qarabağ savaşı başlanacaq"**
Yəhudi politoloq sensasion açıqlama verib (səh.7)

✓ **Siyahımızda 3 siyasi məhbusun adı var**
Səadət Bənənyarlı: “Onların əfv olunmasını istəyirik, amma ad çəkməyəcəm” (səh.4)

✓ **Peyvəndlənmə “oyun-oyuncaq" deyil**
Hansısa kənddə yaşayan ahıl insana “çip" yerləşdirmək kimə və nəyə gərəkdir? (səh.13)

# Dünyada ilk dəfə belə muzey yaradılıb





## "Suraxanı" gəmi-muzeyinin açılışında Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər

Dünən Bakıda "Suraxanı" tanker-muzeyin açılışı olub.

Dünyada ilk dəfə yaradılan bu muzeyin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.

Ölkəmizdə gəmiçiliyin inkişafı ilə yanaşı, dənizçilik ənənələrinin qorunması, tarixinin araşdırılıb öyrənilməsi və yaşadılması istiqamətində də bir sıra layihələr həyata keçirilib. Azərbaycanda qədim tarixə malik dənizçiliyin keçmişini, bu gününü və gələcəyini özündə birləşdirən "Suraxanı" tanker-muzeyinin yaradılması dövlətimizin başçısının dəstəyi ilə bu sahədə atılan növbəti mühüm addımdır. Muzey qismində "Suraxanı" tankerinin seçilməsi də təsadüfi deyil. Bu gəmi öz dövrü üçün ən iri və müasir tankerlərdən biri olub. Onun muzeyə çevrilməsi üçün Böyük Britaniya, Niderland, Türkiyə kimi qədim gəmiçilik ənənələri olan ölkələrin təcrübəsindən istifadə olunub. Beləliklə, 2000-dən artıq yerli gəmi təmirçisinin əməyi nəticəsində nadir layihə ərsəyə gəlib. Muzeyə gələn ziyarətçiləri kapitan və baş köməkçi qarşılayaraq, onları heyət üzvləri və vəzifələri barədə məlumatlandırırlar. Muzeyin zallarında ən müasir texnoloji həllər tətbiq olunub. Məsələn, oyun manipulyatorları vasitəsilə yanalma əməliyyatını müstəqil şəkildə yerinə yetirmək mümkündür. Həmçinin ziyarətçilər 360 dərəcəli ekranla nümayiş olunan videoda baş verənlərin birbaşa "iştirakçısı"na çevrilirlər.

Muzeydə dünyaca üç məşhur dəniz mayakının modelləri ilə tanış olmaq imkanı da var. Naviqasiya masasında ziyarətçilər Xəzərdə üzən gəmilərin marşrutu, xarici kommunikasiya və naviqasiyaları ilə tanışlıq fürsəti əldə edəcəklər. Burada keçmişə səyahət də mümkündür. Ötən əsrin ortalarına səyahət edən ziyarətçilər gəminin maşın şöbəsində çalışan heyətin gündəlik iş həyatı ilə yaxından tanış olacaqlar. Tanker-muzeyin maraqlı ekspozisiyalarından biri də okean və dənizlərdən yığılan flora və fauna nümunələrinin sərgiləndiyi guşədir.

Tanker-muzeydə, həmçinin Böyük Vətən müharibəsi illərində, eləcə də 1990-cı ilin 20 Yanvar hadisələri zamanı Azərbaycan dənizçilərinin qəhrəmanlıq salnaməsi yer alıb. Muzeydə ümummilli lider Heydər Əliyevin Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin inkişafına göstərdiyi misilsiz xidmətləri haqqında interaktiv kitab, Prezident İlham Əliyevin dənizçilik sahəsində həyata keçirdiyi irimiqyaslı layihələri əks etdirən infomonitor var.

Maraqlı eksponatlarla zəngin tanker-muzey postpandemiya dövründə turistlərin ən çox üz tutacağı məkanlardan olacaq.

Dövlətimizin başçısına və birinci xanıma fədakar Azərbaycan dənizçilərinin xatirəsinə ucaldılan heykəltəraşlıq kompozisiyası barədə də məlumat verilib.

Bildirilib ki, əsərin müəllifləri Xalq rəssamları Səlhab Məmmədov və Əli İbadullayev, memarı isə Əməkdar memar Elxan Əsədovdur. Heykəltəraşlıq kompozisiyası dinamik fiqurlu dalğanı yaran gəmi pəri ilə təqdim edilib. Bu pər Xəzərdə gəmiçiliyin inkişafını simvolizə etməklə bərabər, həm də dənizçilərin enerji mənbəyi və həyatlarının ayrılmaz atributu kimi yaradılıb.

## "Ermənistan rəhbərlərinin məsuliyyətinə çox ümid edirik"

### Matviyenko: "Qarabağa dair sazişə zidd hər hansı hərəkət böyük faciəyə gətirib çıxara bilər"



**Rusiya İrəvandakı hadisələrdən asılı olmayaraq, Ermənistanın Dağlıq Qarabağla bağlı üçtərəfli sazişə riayət edəcəyinə ümid edir.**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu RİA "Novosti" agentliyinə müsahibəsində Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko bildirib.

"Biz Ermənistan rəhbərlərinin məsuliyyətinə çox ümid edirik, hansısa hadisələrin baş verməsindən asılı olmayaraq, Dağlıq Qarabağla bağlı sazişin icra olunmasında davamlılıq olmalıdır. Bu sazişə zidd olacaq hər hansı hərəkət, addım böyük faciəyə gətirib çıxara bilər. Buna yol vermək olmaz", - deyə o qeyd edib.

V. Matviyenko üçtərəfli sazişin imzalanmasının Cənubi Qafqaza sabitlik gətirdiyini də xatırladıb.

## Nikola Sarkozi bir il həbsdə yatacaq

### Sabiq Prezident korrupsiyada və vəzifədən sui-istifadədə ittiham olunur



**Paris Məhkəməsi Fransanın sabiq Prezidenti Nikola Sarkozinin azadlıqdan məhrum edilməsi barədə qərar verib.**

APA-nın xəbərinə görə, bu barədə "France Press" agentliyi məlumat yayıb.

Hökmə əsasən, N. Sarkozi cəzasının bir ilini həbsxanada, yerdə qalan iki ilini şərti olaraq çəkəcək.

Sabiq Prezident korrupsiyada və vəzifədən sui-istifadədə ittiham olunur.



## Paşinyan Prezidentin evinə getdi

### Baş nazir Armen Sarkisyanla görüşüb

**Ermənistan prezidenti Armen Sarkisyan və Baş nazir Nikol Paşinyan arasında görüş keçirilib.**

APA-nın xəbərinə görə, bu barədə N. Paşinyanın mətbuat xidməti məlumat yayıb.

Görüş Prezidentin evində baş tutub. A. Sarkisyanın səhhətində problem olduğu üçün N. Paşinyan görüş üçün onun evinə yollanıb.

Tərəflər ölkədə daxili siyasi vəziyyəti müzakirə ediblər.

# Erməni vandalizmini gözləri ilə görüb məyus oldular

## Xristian dövləti olan Gürcüstan nümayəndələrinin Qarabağa səfəri olduqca vacib idi

Bir qrup gürcüstanlı jurnalist, ictimai-siyasi xadim və ekspertlər Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər edib. Qonşu ölkədən olan qonaqlar Ağdam, Füzuli, Cəbrayıl və digər ərazilərə baş çəkib, erməni vandalizmi və vəhşilikləri ilə tanış olub. Gürcüstanlı qonaqlar gördüklərindən dərin məyusluqlarını ifadə ediblər.

**Səfərlə bağlı fikirlərini "Şərq"ə danışan politoloq Natiq Miri deyir ki, qonşu dövlət və xristian ölkəsi olan Gürcüstan tərəfinin gəlib gerçəkləri öz gözü ilə görməsi beynəlxalq ictimai rəyi tamamilə Azərbaycanın xeyrinə dəyişəcək:**

"Azərbaycan Prezidenti Cənab İlham Əliyevin işğaldan azad olunmuş ərazilərə bir çox diplomatik nümayəndəliklərin rəhbərləri, təmsilçilərinin və jurnalistlərin səfəri ilə bağlı konkret göstərişi olub. Bu, Qarabağ haqqında həqiqətləri dünyaya təqdim etmək və beynəlxalq ictimai rəyi Azərbaycanın xeyrinə dəyişməyi hədəfləyir. Düşünürəm ki, bu çox doğru bir addımdır. Gürcüstan tərəfindən önəmli şəxslərin də bu ərazilərə gəlməsi iki dövlət arasında münasibətləri tənzimləməyə və işğalla bağlı ortaq təsəvvürün formalaşdırılmasına çox ciddi şəkildə yardım edir. Qonşu ölkənin də bu yöndə problemləri var. Gürcüstanın hazırda Abxaziya və Axetiya kimi əraziləri işğal altındadır. Ona görə də Gürcüstanla Azərbaycanın ümumi ictimai rəyə və təsəvvürə malik olması çox faydalıdır. Xristian dövləti olan Gürcüstan vasitəsilə həqiqətlərin dünyaya çatdırılması bütün xristian dünyası üçün çox inandırıcıdır".

**Natiq bəy qeyd etdi ki, bu səfərlərin gələcəkdə də davam etməsi bizim üçün çox əhəmiyyətlidir:** "Ermənistan dəfələrlə cəhd edib ki, Gürcüstan ilə Azərbaycan arasındakı münasibətləri pozsun və bu, indi də davam edir. Məsələ tək Ermənistanla bağlı deyil. Zaman-zaman Rusiya da iki ölkə arasındakı əlaqələri korlamağa cəhd göstərib. İndi isə qonşu ölkə olan Gürcüstanın Qarabağ gerçəklərini gəlib öz özü ilə görməsi və bunu həm ölkə daxili, həm də xarici mediada işıqlandırılması iki millət və dövlət arasında münasibətlərin daha yüksək məcraya yönəldilməsinə xidmət edir. Bu baxımdan azad olunmuş bölgələrimizə xarici ölkələrin nümayəndələrinin gəlməsi çox əhəmiyyətlidir. Çünki bu, informasiya savaşında blokadanın tamamilə yarılması deməkdir. Həmin səfərlər imkan verir ki, proseslər Azərbaycanın xeyrinə dəyişsin. Hesab edirəm ki, bu səfərlər gələcəkdə də davam etməlidir".



**Aytac Ali**

Ermənistanda siyasi böhran dərinləşir və hökumətə qarşı etirazlar genişlənir. Baş nazir Nikol Paşinyan isə öz tərəfdarlarını küçələrə tökür və dəstəyinin güclü olduğunu nümayiş etdirməyə çalışır. Bir yandan isə siyasi rəqibləri ilə mübarizəni sürdürür. Məlumdur ki, Prezident Armen Sarkisyan Qasparyanın vəzifədən azad edilməsi barədə Baş nazir Nikol Paşinyanın təqdimatını geri qaytarıb.

# Dirəniş hələ çox çəkəcək

## Ermənistandakı qarşıdurmanın ip ucu Kremlin əlindədir

Təqdimat geri qayıdan kimi Paşinyan dərhal ikincisini göndərib. Baş nazir prezident Sarkisyanın təqdimatdan imtinasının ölkədəki stabilliyə xidmət etmədiyini bildirib: ”Prezidentin Baş Qərargah rəisi Onik Qasparyanın vəzifədən azad edilməsi haqda təqdimatımdan imtina etməsi barədə qərarı anlaşılmazdır. Mən göstərəcəm ki, prezidentin qərarı əsassızdır, heç bir qanuna sığmır və bu, çox ciddi danışıq olacaq”. O, Baş Qərargahın siyasi bəyanatının tam qəbuledilməz olduğunu qeyd etməklə bərabər, bir müddət öncə Ali Məhkəmə Şurasının da analoji addımını unutmamaq gərəkdiyini deyib. Baş nazirin Baş Qərargah rəisinin işdən azad olunması barədə iki dəfə ardıcıl göndərdiyi təqdimatı rədd etdiyi üçün Sarkisyanın impiçment məsələsi də gündəmə gəlib.

**Ermənistan cəmiyyəti qorxu içindədir...**

Ötən gün erməni mediası teleqram kanallarına və ”hökumətindəki mənbələrə” istinad edərək, guya, Yerevana 13 türk xüsusi təyinatlısının sızması haqda xəbərlər dərc edib. Sosial şəbəkələrin erməni seqmentində yayılan xəbər düşmən ölkədə böyük xof yaradıb. Xəbərlərdə iddia edilib ki, komandoslar Nikol Paşinyanın istefasını tələb edən Baş Qərargah rəisi və ordu generallarını neytrallaşdıracaq. Bu məqalələrin başlıqları çox şeydən xəbər verir: ”Paşinyan Ermənistanı satıb”, ”Türklər İrəvanda erməni pasportları ilə gəzirlər - Nikol xaindir”. Mediada tirajlanan xəbərlər ölkədə əməlli-başlı rezonans doğurub. Yayılan məlumatlarla bağlı Ermənistan Milli Təhlükəsizlik Şurası açıqlama verərək, sözügedən iddiaların yalan olduğunu deyib: ”Türkiyə xüsusi təyinatlılarının Ermənistana gəlməsi ilə bağlı yayılan məlumatlar həqiqəti əks etdirmir. Bunu təkzib edərək həmvətənlərimizi dezinformasiyaya uymamağa, sayıq olmağa və yoxlanılmamış məlumatlardan uzaq durmağa səsləyirik”.

**“Təhlükəsizlik Şurası Armen Sarkisyana müraciət ünvanlayıb”**

Ermənistan Təhlükəsizlik Şurası (TŞ) Ermənistan Prezidenti Armen Sarkisyana müraciət edib. TŞ müdafiə siyasətinin əsas istiqamətlərini müəyyənləşdirən orqan olaraq Silahlı Qüvvələrin siyasi prosesə cəlb edilməsi cəhdlərini qətiyyətlə pisləyib: ”Konstitusiya Silahlı Qüvvələrin siyasi proseslərə qarışmanın yolverilməzliyini, mülki nəzarət altında olma faktını açıq şəkildə müəyyənləşdirir. Qanuna əsasən, Ermənistan Respublikası Silahlı Qüvvələri Baş Qərargah rəisinin təyin və ya vəzifədən azad edilməsi təklifi Baş nazirin qərarına əsaslanır”. Bəyanatda qeyd olunub ki, Ermənistan respublikasının prezidenti konstitusiyaya riayət olunmasına nəzarət edir və belə olan halda birmənalı olaraq müvafiq bir mövqe qoymalıdır: ”Yuxarıda göstərilənlərə əsaslanaraq Təhlükəsizlik Şurası prezidenti Baş qərargah rəisini istefaya göndərmək və müvafiq Fərmanı imzalamaq barədə Ermənistan Respublikası Baş nazirinin vəsatətini təmin etməyə çağırır”.



## Moskva Paşinyanın getməsinə razılıq verdiyi an baş nazir devriləcək

**“Baş nazirin düşmənləri arasında kreativ ağıla malik birisi yoxdur”**

Rusiyalı siyasi ekspert Qriqori Trofimçuk bildirib ki, erməni müxalifəti mövcud hakimiyyətə qarşı mübarizədə düzgün tezislərdən istifadə etmir. Onun sözlərinə görə, Ermənistan müxalifətinin indiki tezisləri gülməli və tamamilə boşdur: ”Onların tezislərində ”zərbə gücü” yoxdur. Halbuki, məhz sözlər və tezislər həmişə siyasətin əsas silahı olub. Əsas nümunəvi axmaqlıq isə guya, Paşinyanın ”türk olması”, ”türklərə qulluq etməsi” kimi gülünc iddialarla dolu feykləri yaymaqdır”.

Trofimçuk qeyd edib ki, ermənilər uzun müddət öz ”varçapet”lərini (baş nazir) Rusiyanın, sonra isə ABŞ-ın casusu etmək istəyirdilər: ”İndi isə növbə Türkiyənindir. Bu, həqiqətən çox gülməlidir. Erməni müxalifəti nağıllar üzərində siyasi tezislər yaradır. Hiss olunur ki, Ermənistan baş nazirinin düşmənləri arasında kreativ ağıla malik birisi yoxdur. Nə danışmaq, hansı ipi hardan çəkmək lazım olduğunu bilmirlər. Bu da Nikola ümid verir. Belə beyinə malik olan müxalifət uğur qazana bilməz”.

**“Paşinyana qarşı sui-qəsd ola bilər...”**

**Ermənistandakı prosesləri “Şərq”ə təhlil edən sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli deyib ki, Prezident Armen Sarkisyan indiki şəraitdə konstitusiyaya uyğun hərəkət etmir.** Siyasi şərhçinin sözlərinə görə, ölkə qanunlarına əsasən, baş nazir icra hakimiyyətinin başında olan şəxsdir: ”Kadrların seçilib-yerləşdirilməsində əsas məsuliyyət Paşinyanın üzərinə düşür. Formal olaraq isə təqdimatlar prezident tərəfindən təsdiq edilir. Həm də müvafiq qanunvericiliyə görə, prezident təqdimatı iki dəfə geri çevirərsə, baş nazirin qərarı avtomatik olaraq qüvvəyə minir. Əgər Paşinyan israrlıdırsa, onsuz da Baş Qərargah rəisi O.Qasparyan istefaya göndəriləcək”. Politoloq vurğulayıb ki, erməni müxalifəti o qədər simasız, həyasız, quldur şəxslərdən formalaşıb ki, xalq onlara dönüb baxmaq istəmir: ”Serj Sarkisyan və Robert Koçaryan erməniləri bədbəxt günə salıblar. ”Qarabağ klanı” və onlara dəstək verən müxalif qüvvələrin seçkidə qalib gəlmək şansları sıfırdır. Çıxış yolu zorla hakimiyyəti devirməkdir. Ermənistandakı proseslər Paşinyanın ”İsgəndər” raketi ilə bağlı dediklərindən sonra başladı. Tərəddüdsüz demək olar ki, ölkədəki qarşıdurmanın ip ucu Kremlin əlindədir. Qasparyanı da bu işə təhrik edən Rusiyanın Yerevandakı agentura şəbəkəsidir. Paşinyan özünə qarşı olan cəhdlərə, təxribatlara dirənir. Baş nazirin sosial bazası güclüdür. Paşinyan müxalifətin etiraza çıxartdığı insanlardan üç qat artığını özünədəstək mitinqinə çıxaracaq. Düzdür, bu qədər gərginlik fonunda baş nazirin çox tab gətirməsi mümkün görünmür. Çünki proseslərin içində Rusiya var. Moskva Paşinyanın getməsinə razılıq verdiyi an baş nazir devriləcək. Hətta qarşıdakı günlərdə Paşinyana qarşı sui-qəsd də ola bilər”.

**İsmayıl Qocayev**

"Mina xəritələrinin bizə verilməməsi hərbi qulluqçu və dinc sakinləri şüurlu şəkildə ölümə düçar etməkdir". Bunu Prezident İlham Əliyev yerli və xarici jurnalistlər üçün videoformatda keçirdiyi mətbuat konfransında deyib. Dövlət başçısı vurğulayıb ki, əsas çətinlik törədən minalardır. Çünki erməni tərəfi mina sahələrinin xəritəsini bizə təqdim etmir:

# Harada neçə mina basdırdıqlarını gözəl bilirlər

## Ermənilər bizimlə mehriban qonşuluq şəraitində yaşamağa hazır deyil

”Bu, cinayət olaraq qiymətləndirilə bilər. Çünki hərbi əməliyyatlara son qoyulandan sonra bizdə həm hərbçi, həm də mülki şəxslərdən həlak olanlar olub. Buna səbəb minalı sahələrin xəritəsinin təqdim olunmaması olub”. Prezident vurğulayıb ki, növbəti dəfə erməni tərəfinin davranışlarının qeyri-səmimiliyindən əmin oluruq: ”Sözləri ilə əməlləri düz gəlmir. Onlara hərbi əsirləri, ölənlərin meyitlərini təhvil verdik. Biz özümüzü əxlaq normaları, insanlıq davranışları çərçivəsində aparırıq. Hansı əməkdaşlıqdan söhbət gedə bilər ki?”.

**Dövlət başçısının vurğuladığı önəmli məqamı ”Şərq”ə şərh edən siyasi şərhçi Anar İmanov deyib ki, Ermənistanın ”mina xəritələri” adlı oyununun vacib məqsədi var.** Analitikin sözlərinə görə, emənilər bütün cəhdləri ilə azərbaycanlıların Qarabağa qayıdışını ləngitməyə çalışırlar: ”Amma bu oyun baş tutmayacaq. Biz əzəli torpaqlarımıza addım-addım qayıdırıq. Ermənistan deyir ki, guya, ”xəritələrdən xəbəri yoxdur”. Ağ yalandır! Ermənilər harada neçə mina basdırdıqlarını çox gözəl bilirlər. Onlar sadəcə möhtəşəm qələbəmizi həzm edə bilmir və çalışır ki, çoxlu sayda insan minalara düşüb həlak olsun. Amma minatəmizləmə prosesi çox böyük sürətlə davam edir. Yaxın gələcəkdə bu proses tam bitəcək. Dövlətimiz bunun üçün bütün tədbirləri görüb, bu problemin həlli üçün mütəxəssislər işləyir”.



## Onlar bütün cəhdləri ilə azərbaycanlıların Qarabağa qayıdışını ləngitməyə çalışırlar

**Ekspert bildirib ki, Ermənistanın qeyri-səmimiliyini hər kəs görür, hər kəs anlayır:** ”Məsələn, Rusiyanın ”Milli müdafiə” jurnalının baş redaktoru, hərbi ekspert İqor Korotçenko qeyd edib ki, işğaldan azad olunan ərazilərdə yüzlərlə kvadrat kilometr minalanmış ərazi var: ”Xəritə olmadan 30 il bundan öncə doğma yurdlarından məcburi köçkün düşmüş dinc azərbaycanlıların qayıdışının təhlükəsizliyini təmin etmək çətindir”. Ermənistanın bu hərəkətləri cinayətdir. Ermənistanın Azərbaycan ərazilərini minalaması beynəlxalq qanunlara ziddir. Və bu qeyri-səmimilik bir daha göstərir ki, ermənilər bizlə mehriban qonşuluq şəraitində yaşamağa hazır deyillər.

Bir çox məsələlərdə Azərbaycan Ermənistana qarşı humanistliyini nümayiş etdirib, humanist addımlar atıb. Amma qarşı tərəfdən bu cür humanistliyin şahidi olmamışıq”.

**A.İmanovun sözlərinə görə, Ermənistan öz cinayətkar əməllərindən əl çəkən deyil:** ”Təəssüflər olsun ki, başqa məsələlərdə olduğu kimi, bu məsələdə də hər hansı beynəlxalq təşkilatın lazımi təpkisini görmürük. Dünya erməni terroruna qarşı laldır, kordur, kardır. Sözdə insan haqları müdafiəçilərinin dilləri yenə qısalıb. Hazırda Ermənistanın etdiyi hərbi cinayətdir və gələcəkdə bunu törədənlər məhkəmə qarşısında cavab verəcəklər! Faşistlər də vaxtında arxayın idilər ki, insanlığa qarşı cinayətləri cavabsız qalacaq. Amma Nürnberq məhkəməsi quruldu və cəlladlar layiq olduqları cəzalarını aldılar. Erməni faşistləri üçün də belə bir gün olacaq, əminəm”.

**İsmayıl Qocayev**

# Siyahımızda 3 siyasi məhbusun adı var



## Səadət Bənənyarlı: “Onların əfv olunmasını istəyirik, amma ad çəkməyəcəm”

Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyasının üzvləri komissiyanın iclaslarının intensiv xarakter aldığını, müraciətlərə baxıldığını bildirirlər. Bu isə Novruz bayramı ərəfəsində əfv fərmanının imzalanacağı ilə bağlı gözləntiləri artırır. Komissiyada təmsil olunanlar daxil olmuş müraciətlərə, ərizələrə həssaslıqla, diqqətlə yanaşıldığını da qeyd edir. Odur ki, növbəti əfv fərmanının daha çox məhbusu əhatə edəcəyi gözlənilir.

**Məsələ ilə bağlı “Şərq”ə danışan Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsinin rəhbəri, hüquq müdafiəçisi Səadət Bənənyarlı da bayram günlərində əfv fərmanının imzalanacağına ümid etdiyini dedi:**

- Hüquq müdafiə təşkilatlarına əsasən məhbusların ailələri tərəfindən müraciətlər daxil olur. Məhbusların valideynləri, həyat yoldaşları, ailə üzvləri müraciət edirlər. Biz də müraciətləri cənab Prezidentə ünvanlayırıq. Çünki əfv fərmanının imzalanması Prezidentin müstəsna hüququdur. Çalışırıq müraciətləri diqqətlə araşdıraq, hansı məhbuslar ki islah olunub, azadlığa buraxılmaları cəmiyyət üçün artıq heç bir təhlükə daşımır, yaxud yaşlı insanlar, müəyyən xəstəliyi olanlar, səhhəti ilə bağlı problem yaşayan məhbuslar əfv edilsin. Elə məhbuslar var, artıq babadırlar, nəvələri var, amma hələ də həbsdədirlər. Ahıl yaşlıların, xəstə məhbusların, "ömürlüklər"in və əlbəttə ki, islah olunanların əfv edilməsini, ailələrinə qovuşmasını arzulayırıq. Bizim üçün bu, həmişə gündəmdə olan mövzudur, bu istiqamətdə də çalışırıq.

*“Elə məhbuslar var, artıq babadırlar, nəvələri var, amma hələ də həbsdədirlər. Ahıl yaşlıların, xəstə məhbusların, “ömürlüklər”in və əlbəttə ki, islah olunanların əfv edilməsini, ailələrinə qovuşmasını arzulayırıq”*

**S.Bənənyarlı "siyasi məhbus" siyahısı ilə bağlı mövqeyini açıqladı:**

- Hazırda xarici ölkələrdə fəaliyyət göstərən bəzi QHT-lər, müxtəlif təşkilatlar, yeni siyasi məhbus siyahısı tərtib edir, siyasi məhbusların sayını çox göstərməyə cəhd edirlər. Hesab edirəm ki, süni şişirtmələrə ehtiyac yoxdur. Biz Azərbaycanda çalışan insan hüquqları üzrə qeyri-hökumət təşkilatları əvvəlki "siyasi məhbus" siyahısı üzərindən işləyirik. Bu siyahıda da təxminən 3-ə yaxın məhbusun adı var. Bu siyahıda elə məhbuslar var ki, onların əfv olunmasını istəyirik. Lakin mən konkret ad çəkməyəcəm. Çünki kiminsə adı çəkilməsə, bunu ayrı-seçkilik kimi qələmə verəcəklər. Hər kəsin adını qeyd etməksə mümkün deyil. Həm də hansısa məhbusun adı çəkiləndə o insanda, ailəsində ümid yaranır. Ümidlərin doğrulmaması ilə insanlara əzab verir. Odur ki, biz sadəcə, bizə daxil olan müraciətlərin tərəfimizdən cənab Prezidentə ünvanlandığını bildiririk. Ailələrin gözü yoldadır. İnanırıq ki, budəfəki əfv fərmanı daha çox məhbusu əhatə edər, həssas durumda olan məhbuslar da əfv edilər, azadlığa çıxar.

**Məlahət Rzayeva**

## Ərdoğan da, Putin də vədlərini yerinə yetirir

### Telekörpüdə müzakirə olunacaq məsələlər kifayət qədər çoxdur



**Rusiya Prezidenti Vladimir Putin və onun türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğan arasında telekörpü keçiriləcək. Kremlin mətbuat katibi Dmitri Peskov Rusiya və Türkiyə dövlət başçıları arasında telekörpünün keçirilməsinə hazırlıq aparıldığını təsdiqləyib.**

O qeyd edib ki, telekörpü "Akkuyu" Atom Elektrik Stansiyasının üçüncü blokunun inşasına başlanılması münasibətilə baş tutacaq.

**İki ölkə arasındakı telekörpünün hansı zərurətdən doğduna dair fikirlərini "Şərq"lə bölüşən "Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu bildirib ki, son illər Türkiyə və Rusiya arasında tərəfdaşlıq münasibətləri artıb:** "İki lider arasında çox sıx təmaslar var. Putin son müsahibələrindən birində söylədi ki, "Ərdoğanla müəyyən fikir ayrılıqları olsa da, o, verdiyi vədlərin hər birini yerinə yetirir". Hər iki ölkənin ortaq maraqları var. Suriya və Liviyada əməkdaşlıq, Cənubi Qafqazda isə yeni əməkdaşlıq formatları yaranıb. İkinci Qarabağ savaşından sonra regional əməkdaşlığa yaşıl işıq yandırılıb, getdikcə yük daşımaları artıb, həmçinin Ermənistanda vəziyyət qarışıqdır. Bir sözlə, telekörpü zamanı müzakirə olunacaq məsələlər kifayət qədər çoxdur. Bu cür müzakirələr Türkiyə və Rusiyadan əlavə ölkəmizin də maraqlarına xidmət edir. Çünki Rusiya ilə qonşuluq münasibətləri, ticari əlaqələrimiz var. Eyni zamanda rəsmi Kremlin bölgədəki siyasəti və rus əsgərlərinin Qarabağdakı fəaliyyətinə dair ciddi suallarımız mövcuddur. Qardaş ölkə isə müttəfiqimizdir. Yəni Rusiya Türkiyənin maraqlarını nəzərə alsa, bu, Azərbaycanın da xeyrinədir. Ona görə də bu cür telekörpülər həm iki ölkə, həm də Azərbaycan üçün faydalıdır".

**Yeganə Bayramova**

# Yuva qururlar...

## Xankəndi və Xocavənddə rus sülhməramlılarına şəhərcik salınıb

Dağlıq Qarabağda Rusiya sülhməramlıları üçün daha dörd modul şəhərcik salınıb. Şəhərciklər Xankəndi və Xocavənd rayonu ərazilərindədir. Bu barədə Rusiya Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilib. Xatırladaq ki, bu, rus sülhməramlı kontingenti üçün salınan 8-ci şəhərcikdir.

Bu cür şəhərciklər ehtiyac duyulan hər şeylə təchiz edilmiş tamhüquqlu muxtar obyektlərdir. Ayrıca elektrik, su təchizatı, isitmə sistemi var. Hərbçilər üçün şəhərcikdə çarpayılar, qarderoblar, mətbəx mebeli, masalar, stullar, duş, tibb məntəqəsi, uniforma təmizləyici otaq, istirahət otağı, dəftərxana, anbar, yeməkxana və ərzaq anbarı var.

Vəziyyət elədir ki, Rusiya sülhməramlılarının hər addımı, xüsusən müəyyən "köksalma" hərəkətləri ölkə ictimaiyyəti tərəfindən kifayət qədər narahatlıq və hiddətlə qarşılanır. Rusiya rəsmiləri isə israrla vurğulayırlar ki, bu addımlar sülhməramlıların bölgədə rahat fəaliyyətini təmin etmək üçündür. Hər halda 5 il ərzində sülhməramlılar öz rahatlıqları naminə Qarabağda kifayət qədər fəaliyyət icra edə bilərlər.



### “Onların özlərinə bu qədər infrastruktur yaratması hansısa gizli mətləblərdən xəbər verir”

**Politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında bəyan edib ki, Rusiyanın "sülhməramlı" qüvvələr adı altında hərbiçilərinə bu qədər infrastruktur yaratması hansısa gizli mətləblərdən xəbər verir.** Belə bir görüntü yaranır ki, rus hərbçilərinin sanki Qarabağdan getmək fikirləri yoxdur və burda həmişəlik qalacaqlar: "Əslində bu təhlükə istisna edilmir. Bənzər konfliktli bölgələrdən rus qoşunları hələ də çıxmayıb. Moldova, Gürcüstan və s. buna misaldır. Məlumdur ki, sülhməramlılar 5 il müddətinə regiona yerləşiblər. Əgər tərəflərdən biri 4 il yarımdan sonra sülhməramlılardan imtina edərsə, 6 ay müddətində regiondan çıxmalıdırlar. İlkin şərt belədir. Yekun qərar vaxt tamam olduqda sülhməramlıların fəaliyyətinə verilən qiymətdən asılı olacaq. Bunu cənab Prezident İlham Əliyev də vurğuladı və qeyd etdi ki, lazım gələcəksə, müddətin sonunda vaxt uzadılmayacaq və rus sülhməramlıları regionu tərk edəcək".



*Siyasi şərhçi vurğulayıb ki, dövlət başçısının sülhməramlılarla bağlı ifadələri gələcəyə hesablanmış dərin mənalı mesajdır:* "Rus sülhməramlılarının yerləşdiyi regionlardan çıxmamaq kimi istəkləri gizli də olsa var. Onlar hesab edirlər ki, müqaviləni uzadaraq regionda uzun müddət qala bilərlər. Gələcəyə yönəlik planlarını tədricən həyata keçirmək üçün heç bir tərəfi narazı salmadan öz planlarını reallaşdırarlar. Biləndə ki, 5 il sonra regionu tərk etmə ehtimalları böyükdür, açıq və gizli fəaliyyətlərini daha da artırıb, özlərini ələ verəcəklər. Beləcə, vaxt itirmədən rus sülhməramlılarını bölgədən çıxarmağa çalışacağıq".

**A.Qasımov rus sülhməramlılarının məqsədinin bəlli olduğunu söyləyib:** "Sülhməramlılar bölgədə Rusiyanın gələcək geostrateji planlarını həyata keçirmək üçün məqam gözləyirlər. Azərbaycanın apardığı siyasət nəticəsində Rusiyanın bu niyyətləri xəyal olaraq qalacaq. Regionda elə mühit yaranacaq ki, Rusiya məcbur olub özünün imperativ maraqlarından əl çəkəcək. Normal iqtisadi və siyasi əlaqələr qurmaq yolunu tutacaq".

**İsmayıl Qocayev**

# “4 saat, 4 dildə danışmaq bir ilk idi”

## Vüsalə Mahirqızı: “Cənab Prezident sualları açıq, təmkinlə, siyasi bacarıqla cavablandırdı”



“Arzum budur ki, belə mətbuat konfransından biri də Şuşada olsun”

Fevralın 26-da Prezident İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransını bir neçə dildə aparması, jurnalistlərin bütün suallarını cavablandırması jurnalistləri təəccübləndirib. Hətta jurnalistlərdən biri "Siz rekorda imza atdınız, cənab Prezident" - deyə qeyd edib.

Xatırladaq ki, ölkə başçısı mətbuat konfransında 35-dən çox media nümayəndəsinin 50-yə yaxın sualını cavablandırdı. Prezidentin 4 saatdan çox davam edən çıxışı ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından böyük əhəmiyyət kəsb edir.

**Prezidentin çıxışını ”Şərq”ə şərh edən ”APA” Media Qrupunun rəhbəri Vüsalə Mahirqızı bildirib ki, ölkə başçısının əvvəllər də yerli və xarici media nümayəndələri ilə görüşləri, təkbətək müsahibələri olub.** Lakin fevralın 26-da keçirilən mətbuat konfransı bir ilk idi: ”Bu, hər birimizin çoxdan arzuladığımız çıxış idi. Prezidentin mətbuat konfransının bir neçə özəlliyi oldu. Əvvəla, ölkə başçısı 4 saat çıxış etdi. Mənim təmsil etdiyim media qurumu dünyanın müxtəlif ölkə liderlərinin mətbuat konfransında iştirak edib. Amma ölkə başçıları həmin mətbuat konfranslarında adətən bir dildə danışıblar. Lakin cənab Prezident 4 dildə çıxış etdi, ona hansı dildə sual ünvanlanırdısa, elə həmin dildə və əhatəli olaraq cavablayırdı.

Elə bir sual yoxuydu ki, Prezident ona əhatəsiz cavab versin. Cavabların hamısı faktlar, detallar və rəqəmlərlə olurdu, hansısa yaddaş kitabçasından istifadə etmirdi. Elə bir sual olmadı ki, ölkə başçısı ”Cavabı dəqiqləşdirim, sizə məlumat verərəm” desin”.

**V.Mahirqızının sözlərinə görə, mətbuat konfransında demək olar ki, bütün regionlar üzrə media qurumları təmsil olunurdu:** ”Xüsusilə xarici jurnalistlərin verdiyi suallar regionun gələcəyi ilə bağlı Azərbaycanın və Azərbaycan liderinin fikirləri idi. Beləliklə, ölkə başçısının fikirlərinin regionun inkişafı üçün vacib olduğu qəbul edildi.

Prezident bütün sualları tamamilə açıq şəkildə cavablandırdı. Hətta təxribatçı suallar da var idi. Lakin ölkə başçısı çox açıq və təmkinlə, diplomatik və siyasi bacarıqla həmin sualları da cavablandırdı. Jurnalist olaraq arzum budur ki, belə mətbuat konfransları davam etsin və azad edilən ərazilərimiz yenidən qurulandan sonra bu konfransdan biri Şuşada olsun”.

**Yeganə Bayramova**

# Erməni cəmiyyəti həyatın dibindədir

## Xalqın boğazından kəsib silahlara pul xərcləmək ağılsızlıqdır



*“Ermənistan ordusu nə qədər müasir olsa belə onları əzib keçəcək mütləq üstünlüyümüz var”*

**Ötən həftə Prezident İlham Əliyev yerli və xarici jurnalistlər üçün mətbuat konfransı keçirib. Kifayət qədər əks-səda doğuran mətbuat konfransında prezident bir neçə mühüm məqama toxunub.**

Jurnalistlərin suallarını cavablandıran dövlət başçısı Rusiyanın Ermənistan ordusunu müasirləşdirmək istəyinə belə münasibət bildirib:

”Bu yaxınlarda səhv etmirəmsə, Ermənistan prezidenti və Rusiyadakı Ermənistan səfiri demişdi ki, Rusiya Ermənistan ordusunun müasirləşməsində iştirak edəcək. Nəyə görə?! Hansı məqsədlə? Buna elə bir ehtiyac yoxdur...

Belə bir hakimiyyətə dağıdıcı silah vermək olarmı? Bizim əsas hərbi texnikamız Rusiya istehsalı olan texnikalardır. Ermənistandan fərqli olaraq, biz heç vaxt Rusiya istehsalı olan texnikadan şikayətlənməmişik. Bu, dünyada ən yaxşı texnikalardan biridir. Sadəcə, düzgün əllərdə olmalıdır ki, sonra kimisə ittiham etməyəsən”.

**Prezidentin çıxışını şərh edən siyasi analitik Turab Rzayev ”Şərq”ə açıqlamasında deyib ki, Ermənistan ordusunun müasirləşdirilmə cəhdləri absurddur:** ”Bu, heç bir halda regionda sülhə, əməkdaşlığa və dostluğa xidmət etməyəcək. Çox maraqlıdır, nəyə görə Ermənistan ordusunu müasirləşdirməyə ehtiyac duyur? Regionda sülhməramlı missiyasını həyata keçirən Rusiya nə üçün onlara kömək göstərmək istəyir? Hazırda Ermənistanın münaqişədə olduğu ölkə yoxdur. Nə Gürcüstan, nə İran, nə də Türkiyə ilə açıq münaqişədədir. Yeganə ölkə Azərbaycan idi, biz də müharibəni bitirmişik, sülh bəyanatı imzalanıb. İndi isə Ermənistan silahlandırılır. Kimə qarşı? Aydındır ki, Azərbaycana qarşı modernizasiyaya gedilir. Əgər Ermənistan sülh bəyanatına münasibətdə səmimidirsə, onda niyə Ermənistan ordusunu müasirləşdirir?”.

**T.Rzayev bildirib ki, Rusiyanın buradakı rolu çox qəribədir və ağılsız gedişlər edilir:** ”Guya, sülhün bərqərar olması üçün addımlar atır. Eyni zamanda müharibə tərəflərindən birini silahlandırır. Bütün bunlar müharibəyə və məhrumiyyətə səbəb olacaq addımlardır. Ermənistan ordusu nə qədər müasir olsa belə onları əzib keçəcək mütləq üstünlüyümüz var. Bu sadəcə olaraq Ermənistan əhalisinin boğazından kəsib, dolanışıq pulunu mənasız silahlara xərcləmək deməkdir. Çünki onların silah-sursata xərclədiyi milyardlar heç bir effekt vermədi”.

*Siyasi analitik sonda əlavə edib ki, ölkə rəhbəri də çıxışında açıq şəkildə bu addımın mənasız olduğunu, sülhə xidmət etmədiyini bildirib:* ”Ermənistan milyardlarla silah istifadə edib, lakin uğura imza ata bilməyib. Onlar bu silahlar üçün pul verməyiblər. Çünki kimsə hədiyyə edib. Bəllidir ki, hədiyyə edən tərəf Rusiyadır. İndi də Rusiyanın Ermənistan ordusunu müasirləşdirmək istəyi ”sülhməramlı” missiyasına xələl gətirir. Biz onlara humanistlik göstəririk, müəyyən yükləri rahat daşımaq üçün Gəncə aeroportundan istifadə etmələrinə imkan yaradırıq. Digər tərəfdən isə Ermənistan ordusunu müasirləşdirmək istəməsi sülhün təmin olunmasına əsas vermir. Bu da Rusiyanın sülh və sülhməramlı missiyasında səmimi olmadığını göstərir”.

**Aygün Tahirqızı**

# İran haqqa dönübsə, nə yaxşı...

## Fazil Mustafa: *“Tehran bizimlə əlaqələri genişləndirməyə çalışır”*



"Azərbaycan Respublikasının müdrik xalqının və cəmiyyətinin diqqətinə çatdırırıq ki, İranın Azərbaycandakı səfirliyi üçüncü bir ölkənin KİV-lərinə istinadən yayılan "İran Azərbaycan ordusunun məlumatlarını Ermənistana ötürüb və bu ölkəyə silah və yanacaq verib" xəbərlərini qətiyyətlə təkzib edir".

Bu barədə İranın Azərbaycandakı səfirliyindən məlumat verilib.

Səfirlik bildirir ki, İslam İnqilabının Ali Rəhbərinin və İslam Respublikasının yüksək vəzifəli rəsmilərinin Azərbaycan Respublikasının mövqelərini açıq şəkildə dəstəkləmələri və işğalı qınamaları ilə bağlı açıq mövqeləri hamıya aydındır və bu mövqe dəfələrlə Azərbaycan Respublikasının yüksək vəzifəli şəxsləri tərəfindən müsbət qiymətləndirilib.

İran səfirliyi əlavə edir ki, Azərbaycan Respublikasının müdrik xalqı da son müharibə zamanı İran və Ermənistanın quru və hava sərhədlərinin bağlanması xəbərindən məlumatlı idi: ”Bu, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən də bəyan olunub. Azərbaycan Respublikasının möhtərəm Prezidenti də İrandan silah aldıqlarını açıqlayıb: ”İndi İranla bir növ təbliğat qarşıdurmasında iştirak edən üçüncü bir ölkə mənbəyinə istinadən yayılan təhrikedici xəbərlər tamamilə yalandır və tərəfimizdən təkzib olunur. İran, Dağlıq Qarabağ müharibəsinin həssas dövründə Azərbaycan Respublikasına siyasi və hərbi dəstək verib. İki millətin tarixi, mədəni və dini ortaqlıqlarını nəzərə alaraq, İran və Azərbaycan xalqlarının dostluğu əbədidir və heç bir qüvvə bu cür hərəkətləri ilə ona xələl gətirə bilməz”.

Qonşumuz danışdı, məsələyə dırnaqarası aydınlıq gətirdi. Amma görünən odur ki, İranın qeyd etdiyi ”üçüncü ölkə” haradırsa o, həqiqətən də haqlıdır. Baxmayaraq ki, o zaman sərhədlər bağlı idi, biz İranın Ermənistana necə lazımdır dəstək verdiyini müharibənin gedişatında əldə olunan faktlardan da bilirik.

Bəli, İran bir qədər sonra Ermənistana hərbi və humanitar yardım göndərməyi dayandırdı. Lakin bu, ölkə prezidentinin və qardaş Türkiyənin siyasi səyi nəticəsində baş verdi.

Amma yaxşı ki, İran bu çağırışlardan nəticə çıxararaq haqq yoluna qayıtmağı bacardı.

Lakin Azərbaycan xalqının da İranın ”nağıllarını” dinləməyə nə səbri, nə də inamı qalıb. Bizim üçün lazım və əsas olan yeni reallıqlardır.

**Mövzuyla bağlı millət vəkili Fazil Mustafa ”Şərq”ə danışarkən bildirdi ki, müharibə zamanı İran Ermənistan tərəfinə yardımlar etsə də bu artıq keçmişdə qalıb və hazırda onlar siyasətini dəyişib bizimlə əlaqələri genişləndirməyə çalışır:** ”İndiki vəziyyətdə bizim İranla münasibətlərimiz normaldır. Qarabağ savaşından sonra da İran bölgədə kommunikasiya xətlərinin açılmasını, ümumiyyətlə, inteqrasiya proseslərində öz təklifləri ilə çıxış etdi.

Səsləndirilən mesajlar bizim üçün qaneedici mesajlar oldu. Yəni ən azından İran kimi bir dövlətin bu proseslərdə iştirak etməsində bizim də marağımız var.

İndi Ermənistana hər hansı şəkildə etdiyi yardımlar məncə geridə qaldı. Əgər İran öz siyasətində dəyişiklik edirsə və Azərbaycanla normal münasibətlər qurmağa çalışırsa, biz bundan imtina etməməli, əksinə, normal yanaşmalıyıq.

Keçmişdə olan münasibətləri xırdalamaq bir məna vermir, bizə konkret indiki situasiyada olan münasibətlər daha vacibdir”.

**Ağarza Elçinoğlu**

# Azərbaycan yeni senariyə hazır olmalıdır

## Tekin Aycan Taşçı: "Rusiya vasitəsi ilə mənfi tendensiyaları öz xeyrimizə dəyişməliyik"



Ermənistan Silahlı Qüvvələrin Baş Qərargah rəisinin Baş nazir Nikol Paşinyanın istefasını tələb etməsi siyasi vəziyyəti gərginləşdirib. Qonşu dövlətlərin İrəvandakı olaylara münasibəti fərqlidir. Rusiya baş verənləri Ermənistanın daxili işi adlandırdı. Türkiyə isə hərbi qiyamı pislədi, qanuni hakimiyyəti dəstəklədi.

Türkiyənin Ərciyəs Universiteti Strateji Araşdırmalar Mərkəzinin doktoru Tekin Aycan Taşçı Ermənistandakı prosesləri, orada baş verə biləcək hakimiyyət dəyişikliyinin Azərbaycana faydası və zərəri barədə "Şərq"in suallarını cavablandırıb.

**- Türkiyənin Ermənistandakı hadisələrə baxışı necədir?**

- Türkiyə dünyanın harasında olursa olsun, bütün çevrilişlərə qarşıdır. Eyni zamanda Ermənistandakı hərbi çevrilişə qarşı da eyni cür münasibət sərgiləyir. Paşinyan xalqın dəstəyini itirib. Lakin rəsmi Ankaranın mövqeyi budur ki, erməni baş nazirin hakimiyyətdən uzaqlaşması çevrilişlə deyil, seçkilərlə olmalıdır.

**- Bu ölkədəki proseslərin nəticəsini necə proqnozlaşdırırsınız?**

- Paşinyanın xalqın dəstəyini qazanması mümkünsüzdür. Ermənilər lap qədim dövrlərdən türklərə qarşı düşmən mövqedə olan millətdir. Türklərə qarşı düşmənlik keçmişdən bu günə qədər Ermənistan dövləti üçün "siyasi çörək" olub. Başqa sözlə, erməni xalqını bəsləyən və dövlətin varlığını "qanuniləşdirən" şey, türklərə olan düşmənlikdir. Ona görə bu düşmənlik xalqa daim dövlət başçıları tərəfindən ötürülüb. Ermənilərin 44 günlük müharibənin məğlubiyyətini həzm etmələri qeyri-mümkündür. Onlar bu günə qədər heç bir razılaşmaya sadiq qalmayıb. Başqa sözlə desək, istər Paşinyan, istərsə də Ermənistan hakimiyyəti sonda Qarabağdakı yeni vəziyyəti gərginləşdirməyə çalışacaq. Önəmli olan budur ki, Azərbaycan bu senariyə hazırlaşmalı və sürətli bir refleks inkişaf etdirib, Rusiya vasitəsilə mənfi tendensiyaları öz xeyrinə dəyişməlidir. Unutmamalıyıq ki, bölgədə hər hansı proses dəyişəcəksə, bu, müəyyən zaman müddətində deyil, sürətli bir şəkildə baş verəcək. Bunun üçün indidən bütün fəaliyyət planları hazır olmalıdır.

*"Ermənistanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq, türklərə qarşı düşmənçilik onların ana siyasətini təşkil edəcək"*

**- Azərbaycan fürsətdən istifadə edib Laçın dəhlizinə nəzarəti üzərinə götürə bilərmi?**

- Əvvəlki sualın cavabında qeyd etdiyimiz kimi, bu, yalnız Azərbaycanın bütün senarilərə hazırlaşmasından asılıdır. Azərbaycan sürətli hərəkət etməli və məqsədlərinə tez çatmaq üçün işlər görməlidir. Əks təqdirdə, Rusiya öz nəzarətindən kənar bir dəyişikliyə icazə verməz.

**- Paşinyan baş verənlərdən sonra devriləcəkmi?**

- Paşinyan üçün uzun müddət hakimiyyətdə qalmaq çətin görünür. Ancaq önəmli olan Paşinyanın hakimiyyətdə qalıb-qalmaması deyil. Vacib olan budur: Hakimiyyətdə kimin olmasından asılı olmayaraq, türklərə qarşı düşmənçilik həmişə Ermənistanın daxili və xarici siyasətinin mərkəzində olacaq. Beləliklə, Ermənistanda Türkiyə və Azərbaycanla münasibətləri düzəltməyə çalışacaq biri heç vaxt hakimiyyətə gəlməyəcək.

**Yeganə Bayramova**



# Tramp yenə tribunaya qalxıb

## Keçmiş prezident Bayden hakimiyyətini sərt tənqid edib

**ABŞ-ın keçmiş prezidenti Donald Tramp, Cümhuriyyət Partiyasının Floridadakı tədbirində çıxış edib.**

"Şərq" Türkiyə mətbuatına istinadən bildirir ki, Tramp ABŞ Prezidenti Co Baydenin 3 noyabr 2020-ci ildə seçkilərdə məğlub olmasının əsassız olduğu iddiasını təkrarlayıb. Həmçinin 2024-cü ildə keçiriləcək seçkilərdə yenidən baş nazir vəzifəsinə namizəd ola biləcəyinə işarə edib.

Prezidentliyini yanvarın 20-də Demokrat Partiyasıdan olan rəqibi Co Baydenə təhvil verən D.Tramp, 2021-ci ildə ilk kütləvi çıxışını Floridada Mühafizəkarlar Siyasi Fəaliyyət Konfransı sona çatdıqdan sonra edib.

Tamamilə dolu bir salonda coşğulu bir kütləyə danışan Tramp, əsasən Bayden hakimiyyətini sərt tənqid etdi.

Həm özünün, həm də Respublikaçılar Partiyasının gələcəyi ilə bağlı fikirlərini bölüşüb.

**Aygün**

# Adaları işğal etmək səbəbsiz deyil



"Yunanıstan Avropanın Türkiyəyə qarşı istifadə etdiyi vasitələrdən biridir"

1923-cü ildə imzalanan Lozanna və 1947-ci ildə bağlanan Paris müqaviləsinə görə, Aralıq və Egey dənizlərində silahsız olmalı olan daha bir adanı Yunanıstan zəbt edib. Yunanlar son olaraq Limoniya adasına ordu qüvvələrini yeridiblər. Onlar burada Bizans və Yunanıstan bayrağı qaldırıblar. Beləliklə, Yunanıstanın beynəlxalq razılaşmaları pozaraq zəbt etdiyi adaların sayı 20-yə çatıb.

Qeyd edək ki, beynəlxalq sənədlərə görə Türkiyə sərhədində yerləşən 23 ada neytral olmalıdır və oraya hərbi qüvvə yerləşdirməklə bağlı heç bir dövlətin səlahiyyəti yoxdur. Yəni bizim ermənilərdən gördüklərimizi- işğalçılığı, talançılığı, oğruluğu qardaşlarımız da yunanlardan görürlər.

**Bu isə təkcə beynəlxalq hüquqların pozulması deyil, eləcə də rəsmi Ankara ilə zarafat etməkdir. Politoloq Sədrəddin Soltan məsələ barədə "Şərq"ə danışarkən yunanların arxasında müəyyən qüvvələrin dayandığını söylədi:** "Bu, ilk belə hal deyil. Türkiyə ilə Yunanıstan arasında ziddiyət yaratmaq istəyən qüvvələrin maraqları təmsil olunur. Yəqin kasıb Yunanıstana işğal qarşılığında nələrsə vəd edilib. Hər halda onların Türkiyənin adalarından məqsədyönlü şəkildə istifadə etməyə iqtisadi imkanları yoxdur. Fikrimcə, torpaqlar böyük vəsait məbləğində üçüncü bir tərəfə satılacaq. Ümumiyyətlə, Yunanıstan Avropanın Türkiyəyə qarşı istifadə etdiyi vasitələrdən biridir. Başqa sözlə desək, alətdir. İkinci belə vasitə Bolqarıstandır. Ermənistandan Azərbaycan əleyhinə istifadə etdikləri kimi həmin ölkələrdən də rəsmi Ankaraya qarşı faydalanmağa çalışırlar".

**S.Soltanın fikrincə, Türkiyə öz haqlarını müdafiə etməlidir:** "Məncə, bu məsələ NATO müstəvisində müzakirəyə çıxarılmalı və öz həllini tapmalıdır. Çünki NATO nizamnaməsində üzv ölkələrin ərazi bütövlüyü məsələsi var. Bu qurum işğala məruz qalanın ərazi bütövlüyünü müdafiə edir".

**Kənan**

Ermənistan parlamentindəki hakim "Mənim addımım" fraksiyası Prezident Armen Sarkisyanın mümkün impiçment prosesini gündəmə gətirib. Hakim fraksiyanın deputatı Vaaqn Ovakimyan "Facebook" səhifəsində yazıb ki, buna səbəb Prezident Armen Sarkisyanın Baş nazir Nikol Paşinyanın Baş Qərargahın rəisi Onik Qasparyanın vəzifəsindən azad edilməsi barədə vəsatətini imzalamaqdan imtina etməsidir.



# Hakimiyyət davası gedir

## Müxalifət lazımi qədər güclü deyil

**Ermənistanda qan töküləcəyi istisna edilmir**

Qeyd edək ki, fevralın 25-də Silahlı Qüvvələrin Baş Qərargahı Nikol Paşinyanın istefasını tələb etdikdən sonra Baş nazir Baş Qərargah rəisinin istefası ilə bağlı Prezidentə sərəncam layihəsi təqdim edib. Paşinyan Baş Qərargahın bəyanatını dövlət çevrilişinə cəhd adlandırıb. Prezident isə sərəncam layihəsini geri, baş nazirin üzərinə qaytarıb.

Görünür, Ermənistanda artıq ikihakimiyyətliliyin işartıları görünür. Nə prezident baş naziri, nə də baş nazir prezidenti eşidir. Bu isə Ermənistanın yaxın gələcəkdə parçalanması barədə ciddi əsaslar yaradır.

**Politoloq Fikrət Sadıqov rəsmi İrəvandakı durumu "Şərq"ə şərh etdi:** "Xaotik vəziyyət çoxdan müşahidə olunur. Ermənistan artıq siyasi-iqtisadi dalana dirənib. Böhran günü-gündən dərinləşir. Kimin hakimiyyətə gələcəyi onların öz daxili işləridir.

Amma daxili situasiya getdikcə çətinləşəcək. Artıq müttəfiqləri də Ermənistanı tənqid edirlər. Rusiya Ermənistana kömək etməyə çalışır. Lakin rəsmi İrəvan bunu da başa düşmür".

*F.Sadıqovun fikrincə, növbəti müharibəyə başlamaq cəhdi Ermənistan üçün ən pis senari olar:* "İndi orada hakimiyyət davası gedir. Müxalifət lazımi qədər güclü deyil.

Hakimiyyət isə mübarizə aparmağı bacarır. Deməli, vəziyyət hələ bir müddət belə davam edəcək. Daxildə yeni qanların töküləcəyini istisna etmirəm.

Özləri bilərlər. Lakin revanşist şüarlar bütün hallarda nəticəsiz qalacaq. Düşmən bilməlidir ki, "Dəmir yumruq" onların başının üstündədir".

**Kənan Novruzov**

# “Üçüncü Qarabağ savaşı başlanacaq”



## Yəhudi politoloq sensasion açıqlama verib

**İkinci Qarabağ müharibəsində uduzan Ermənistan bir neçə aydır ki, özünə gələ bilmir. Vaxt rəsmi İrəvanın əleyhinə işləyir. Çünki daxildə vəziyyət getdikcə kritikləşir. Və belə bir vaxtda hakimiyyətin dəyişilməsi an məsələsidir.**

Həm də ona görə ki, müxalifət, o cümlədən ”Qarabağ klanı” kifayət qədər fəaldır. Onlar hakimiyyətə gələcəkləri təqdirdə qisas alacaqlarını deyirlər. Elə isə ehtimal olunan çevrilişin nəticəsində nələr dəyişə bilər? ”Dəmir yumruğumuzu” növbəti dəfə işə salmağa ehtiyac olacaqmı?

*İsrailli politoloq Mixail Finkel bu barədə “Şərq”in suallarını cavablandırdı:*

**- Azərbaycanın tarixi qələbəsi barədə nə düşünürsünüz?**

- Sözügedən uğuru yüksək qiymətləndirirəm. Prezident İlham Əliyev adını tarixə qızıl hərflərlə yazdı. Həmin nailiyyətin arxasında dövlət başçısının müdrik siyasəti, uzaqgörənliyi dayanır. O, hər şeyi dəqiq hesablamışdı. Atılan uğurlu addımlar nəticəsində ərazi bütövlüyünüz bərpa olundu. Bu, çox vacib idi.

**- Ermənistandakı daxili vəziyyət barədə nə deyə bilərsiniz?**

- Rəsmi İrəvanda iqtisadi və ideoloji böhranın tüğyan etdiyi aydındır. Hakimiyyətə inam itib. Əslində mən hadisələrin belə cərəyan edəcəyini əvvəlcədən proqnozlaşdırmışdım. Məncə, Ermənistanın müstəqilliyi də sual altındadır. Revanşist qüvvələrin baş qaldırması isə hər iki dünya müharibəsində məğlub olan Almaniyanı xatırladır.

*“Rəsmi Moskva məhz Ermənistan vasitəsilə bölgəyə nəzarət etmək istəyir”*

**- Necə düşünürsünüz, Paşinyan hakimiyyətdə qala biləcək, ya devriləcək?**

- Fikrimcə, indi olmasa belə, növbəti etirazlarda ”taxtdan salınacaq”. Çünki xalq onu sevmir. İnsanlar müharibədəki məğlubiyyətin, yaranmış iqtisadi böhranın günahını məhz mövcud iqtidarda görürlər.

**- Paşinyan Rusiyanın silahlarını bəyənmədiyini demişdi. Sizcə, Putin bu bəyanatına görə onu bağışlayacaq?**

- Siyasətdə daxili auditoriyaya və beynəlxalq ictimaiyyətə deyiləcək sözlər var. Ermənistan baş naziri bəzən bunları qarışıq salır. O, rəsmi Moskvanın bu açıqlamaya çox da fikir verməyəcəyini gözləyirdi. Əslində, məncə, belə də olacaq. Tərəflər arasında münasibətlərin korlanacağına inanmıram. Hər halda Ermənistanda Kremlin 102-ci hərbi bazası yerləşibsə, Rusiyada erməni diasporu fəaliyyət göstərirsə, Moskva bütün hallarda öz forpostunu dəstəkləyəcək.

**- Ümumiyyətlə, baş verən proseslərdə Rusiyanın istədiyi nədir?**

- Rusiya öz ampluasındadır. O, ənənəvi mövqeyini dəyişmir. Hələ Çar vaxtında İrandan İrəvan xanlığına ermənilər köçürülüb. Ermənilərə hər cür dəstək verilib. Sonra bu, bolşeviklər dövründə də davam etdirilib. Çoxəsrlik siyasət indi də öz sözünü deyir. Əslində Kremlin düşmənlərinizi dəstəkləməyi təbiidir. Birincisi, eyni din, yəni xristianlıq amili şimal qonşunuzun tərəf tutmasına səbəb olur. İkincisi isə rəsmi Moskva məhz Ermənistan vasitəsilə bölgəyə nəzarət etmək istəyir. Lakin müdrik siyasətçi İlham Əliyev özünün balanslaşdırılmış siyasəti ilə bu ”oyunu” poza bilər. Rusiya ilə münasibəti qorumaq yaxşı haldır. Azərbaycan həm də Türkiyə ilə Rusiya əməkdaşlığına şərait yaradır.

**- Sizcə, növbəti müharibə başlaya bilərmi?**

- Ehtimal çoxdur. Lakin ermənilər əvvəlcə silahlanmalı, yeni texnikalardan istifadəni öyrənməlidirlər. Zənnimcə, təxminən 5-10 ilə üçüncü Qarabağ savaşı başlanacaq.

**Kənan Novruzov**

## AKP iqtidarı Osmanlı missiyasını özünə hədəf seçib

Tural Abbaslı: “Türkiyə Balkanlardan Asiyaya, Afrikadan Cənubi Qafqaza qədər bütün türklərə, müsəlmanlara qucaq açacaq”



**“Türkiyə dövləti haqlı olaraq özünü Osmanlının mənəvi davamçısı hesab edir”.**

**Bu sözləri ”Şərq”ə AĞ Partiya sədri Tural Abbaslı deyib.** Partiya rəhbərinin sözlərinə görə, indi bu amil Türkiyənin xarici siyasətində bariz görsənir: ”Ankara hökuməti, daha doğrusu, AKP iqtidarı Osmanlı missiyasını özünə hədəf seçib. Osmanlı dünyadakı müsəlmanların, eyni zamanda türklərin ən böyük və güclü himayədarı rolunda çıxış edirdi. Türkiyə məhz bu amal uğrunda ciddi fəaliyyət göstərir. Hamımız uzun illər ərzində müsəlman-türk dünyasının sahibsizliyini görmüşük, hiss etmişik. Çox sevindirici haldır ki, bu gün qardaş Türkiyə kimi çox qüdrətli dostumuz, tərəfdaşımız var. Ötən gün Prezident Ərdoğanın da qeyd etdiyi kimi Türkiyə Balkanlardan Asiyaya, Afrikadan Cənubi Qafqaza qədər bütün türklərə, müsəlmanlara qucaq açacaq”.

*T.Abbaslının sözlərinə görə, artıq Türkiyə əcdadlarının tarixi missiyasının icrasına başlayıb:* ”Dünyanın bir çox bölgəsində, qaynar nöqtələrdə bunun dəfələrlə şahidi olmuşuq. Xoşbəxtik ki, Türkiyəni nəhayət Cənubi Qafqazda, Qarabağda da gördük. Heç şübhəsiz, görməyə də davam edəcəyik. Türkiyə liderinin sözləri Rusiya ilə yanaşı, Qərb ölkələrinə də bir mesajdır ki, heç kim türk dünyasını sahibsiz sanmasın. Güclü Türkiyə güclü türk-islam dünyası deməkdir”.

**İsmayıl**



## Qanunu pozan 3 hakimə töhmət verilib

**Məhkəmə Hüquq Şurasının bu gün keçirilən iclasında məhkəmələrin ərazi yurisdiksiyasında dəyişikliklərin edilməsi, o cümlədən Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin ərazi yurisdiksiyasının müəyyən edilməsi üzrə müvafiq qərarlar qəbul olunub, Hakimlərin Seçki Komitəsi üzvlüyünə verilmiş namizədlər sırasından Komitə üzvləri seçilib.**

Şuradan APA-ya verilən xəbərə görə, qanunvericiliyin tələblərinin pozulmasına görə Şəki Apellyasiya Məhkəməsinin hakimləri Elçin Hüseynov, Ayaz Mahmudov və Vəzirxan Məlikova töhmət verilib, Sumqayıt İnzibati Məhkəməsinin hakimi İsmayıl Quliyevə irad tutulub. Həmçinin, korrupsiyaya şərait yaradan hüquqpozmaya yol verilməsinə, habelə hakim etikasının pozulmasına görə intizam icraatı başlanılıb.

## 44 günlük müharibəni bütün dünya gördü

*Əgər iradə və güc varsa haqq-ədalət öz yerini tapır*

”Xocalı soyqırımının 29-cu ildönümüdür, biz şəhidlərimizin, faciə qurbanlarının qisasını almışıq. Prezident İlham Əliyevin söylədiyi kimi, biz bu illər ərzində bütün gücümüzü səfərbər etdik, ardıcıl siyasət apardıq, beynəlxalq müstəvidə, iqtisadi sahədə, qonşu ölkələrlə münasibətlərdə, regional layihələrin icrasında və əlbəttə ki, ordu quruculuğunun təkmilləşdirilməsi istiqamətində böyük işlər gördük"



**Bu barədə ”Şərq”ə millət vəkili Könül Nurullayeva bildirib.** O qeyd edib ki, bütün Azərbaycan xalqı, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir yumruq kimi birləşərək düşməni məğlub edib torpaqlarımızı işğaldan azad etdi: Azərbaycan 30 il ərzində Ermənistanın işğal siyasətinə qarşı bütün cəbhələrdə mübarizə aparıb. Soyqırımın dünya ictimaiyyətinə çatdırılması istiqamətində intensiv işlər görülüb. Heydər Əliyev Fondunun Vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə reallaşan ”Xocalıya ədalət” kampaniyası çərçivəsində Azərbaycanın haqq səsi dünyaya çatdırılmaqdadır. İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan,



Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 20-dən çox ştatının icra və qanunvericilik orqanı Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyib. 63-ü uşaq olmaqla 613 nəfərin xüsusi amansızlıqla qətlə yetirildiyi bu bəşəri cinayət 20-ci əsrin ən qanlı soyqırımlarından biri kimi təsdiqlənib”.

**Millət vəkili onu da əlavə edib ki, əslində bu illər ərzində bütün dünya Azərbaycanın haqlı tərəf olduğunu anlayırdı.** Sadəcə, əksər hallarda ikili standartlar bəzi siyasi dairələrin bu reallığı etiraf etməsinə mane olurdu: ”İşğalçıya açıq dəstək bölgədə ədalət balansının pozulmasına səbəb olmuşdu. Azərbaycan belə mürəkkəb şəraitdə bütün müstəvilərdə mübarizə apararaq, ərazi bütövlüyünün təmin olunması və haqq səsimizin dünyaya çatdırılması istiqamətində bir addım da olsun geri çəkilmədi. Sona qədər aparılan mübarizə bizi əsas məqsədimizə çatdırdı.

44 günlük Vətən müharibəsində bir daha bütün dünya gördü ki, əgər iradə və güc varsa haqq-ədalət öz yerini tapır. Azərbaycan Ordusu və Azərbaycan xalqı bu reallığı nümayiş etdirdi. Biz azərbaycanlılara qarşı törədilmiş bu soyqırımın dünyaya təqdim olunması istiqamətində bundan sonra da yorulmadan çalışmalıyıq.

20-ci əsrin ən dəhşətli faciəsinin bir daha təkrarlanmaması üçün Xocalıya ədalət sona qədər dünyanın şüarı olmalıdır.

**Aygün Tahirqızı**



# Tabutu gələn günü atası qurban kəsib

## Düşmən Orxanın nəşini əsir götürüb və 72 gün saxlayıb

**İkinci Qarabağ müharibəsində Vətənə layiq əsgərlər savaşdılar. Son nəfəslərinə qədər millət, torpaq dedilər. Qan tökdülər, can verdilər, qazi olub, şəhadətə ucaldılar.**

Orxan Cəfərli də onlardan biridir, millət uğrunda şəhid olanlardandır. O, 16 fevral 1996-cı il tarixində Daşkəsəndə doğulub. 2013-cü ildə hərbi xidmətə yollanıb, çavuş rütbəsi alıb. 2016-cı ildən müddətdən artıq manqa komandiri vəzifəsində çalışmağa başlayıb. Ötən il gizir rütbəsində xidmətə başlayıb. Vətən savaşına qatılıb, oktyabrın 9-da Kəlbəcər uğrunda şəhadətə qovuşub.

**"Şərq"ə şəhidimiz haqqında məlumat verən onun yaxını Zənfurə Cəfərova deyib ki, o, 3 postu aldıqdan sonra hərbi sursatları bitib:**

"Düşmən hücum edəndə Orxan dəbilqə ilə onun başına vuraraq öldürüb. Bir digər mənfur isə Orxana silahla atəş açıb. Beləliklə şəhadətə qovuşub. Sonra düşmən şəhidimizin nəşini əsir götürür və 72 gün saxlayır. Onun müqəddəs tabutu gələn günü atası qurban kəsdi".






Atası Etibar bəy danışır ki, uzun müddət düşmən əsarətində qalmasına baxmayaraq Orxanın bədəni çürüməyib. Sanki iki gündür şəhadətə ucalmış kimi imiş: "O, müharibəyə gedəndə demişdim ki, sən evə gələndə qurban kəsəcəm. Sözümü də tutdum. Şükür Allaha alnıaçıq, şərəfli döyüş yolu keçib, şəhid oldu. Mən də sözümün üstə durdum. Orxan şəhid olacağını da hiss edirdi. Bir dəfə dedi ki, ata, mən şəhid tabutları görmüşəm. Görəsən, onlardan biri də mənə qismət olarmı? Söz tapa bilmədim deyim".

Orxan Cəfərli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

**Samirə Ərəblinski**

## 2022-ci il bütünlüklə virusla mübarizəyə həsr oluna bilər

### Bill Qeyts koronavirus pandemiyasının bitmə tarixini açıqladı



**Dünya koronavirusdan əvvəlki vəziyyətə 2022-ci ildən tez qayıda bilməyəcək. Bunu "CNN"-nin jurnalistləri ilə söhbət zamanı "Microsoft" korporasiyasının banisi Bill Qeyts bildirib.**

Milyarder vaksinin qısa müddətdə yaradılmasını və immunlaşdırılmanın başladılmasını möcüzə adlandırıb. O, ehtimal edib ki, Birləşmiş Ştatlar koronavirusdan əvvəlki vəziyyətə artıq payızda qayıda bilər: "Lakin virus üzərində qələbə qazanmaq üçün "COVID-19"-la qlobal mübarizəyə böyük töhfə vermək və vaksini yaymaq lazımdır".

O, qeyd edib ki, hazırda preparatları əsasən varlı ölkələr alır və onun fondu bu problemdən narahatdır.

Qeyts bildirib ki, virusun yeni ştamlarının meydan gəlməsi və təkrar yoluxma 2022-ci il bütünlüklə koronavirusla mübarizəyə həsr oluna bilər. Virusa ən qısa zamanda qalib gəlmək üçün qəbul olunan tədbirlər effektiv olmalıdır.



## Paşinyan payızda referenduma gedir

### Ermənistan parlament üsul-idarəsindən imtina etməyə hazırlaşır

**Ermənistanın baş naziri Nikol Paşinyan hesab edir ki, silahlı qüvvələrin baş qərargah rəisinin onun istefası barədə bəyanatı sabiq prezident Serj Sarkisyanın təsirinin nəticəsidir.**

Paşinyan bunu dünən Respublika meydanında keçirilən mitinq zamanı bildirib.

"Açıq demək istəyirəm ki, baş qərargahın bəyanatı keçmiş hakimiyyətin, o cümlədən Serj Sarkisyanın təsirinin nəticəsidir. Baş qərargahın rəisi öz bəyanatı ilə qanunu pozub və istefa verməlidir. Bu qaçılmaz olsa da, o demək deyil ki, bundan sonra silahlı qüvvələrin sıralarında qan düşəcək. Sarkisyan və keçmiş hakimiyyət ordunu qanuni hakimiyyətin əleyhinə qaldırmağa cəhd göstərir", - deyə Paşinyan qeyd edib.

Baş nazir deyib ki, bu ilin oktyabr ayında ölkədə yeni Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı referendum keçiriləcək.

**Paşinyan bəyan edib ki, 2015-ci ildə qəbul edilən və 2018-ci ildə qüvvəyə minən Konstitusiyada çoxlu çatışmazlıqlar var və ali qanunda böhranlı vəziyyət yaranması üçün risklər mövcuddur:** "Hesab edirik ki, yarı-prezident üsul-idarəsinə keçmək ən yaxşı variantlardan biridir. İnanırıq ki, ən yaxşı seçimi edəcəyik. Bu proses parlament, hökumət, siyasi qüvvələr, prezident və vətəndaş cəmiyyəti ilə sıx əməkdaşlıq şəraitində həyata keçirilməlidir".

"Referendumdan əvvəl parlament Konstitusiyanın səsvermə tələb etməyən bəzi maddələrini dəyişdirə biləcək", - Paşinyan əlavə edib.

# "Hər dəfə daha qəzəblə irəliləyirdik"

## Cavidan deyir ki, Gəncə və Bərdənin vurulması əsgərlərimizi çox sarsıdıb








## "Bakıdan xəbər gələndə ki, filan yer alınıb, sevinirdik"

*Qəhrəmanlar vurulanda yox, unudulanda ölürlər. Odur ki, gərək onları unutmayaq, unutdurmayaq. Azərbaycan bütün tarixi mərhələlərdə öz igidləri ilə fəxr edib. Sonuncu dəfə 44 günlük Vətən müharibəsi dövründə mərd oğullarımızı tanıdıq.*

Onlar sinələrini vətənə sipər etdilər, biz şəhərin mərkəzində oturub dua etməklə kifayətlənəndə həyatla çarpışdılar, bəzən də vəsiyyət yazdılar...Belə vətəndaşlarımızı necə unuda bilərik? 1994-cü il təvəllüdlü Cavidan Mahmudov da qürur duyduğumuz soydaşlarımızdandır.

O, 2001-ci ildə orta məktəbə daxil olub. 2011-ci ildə məktəbi bitirib. 2012-2013-cü ildə isə Xüsusi Təyinatlı Qoşunlarda hərbi xidmət keçib.

Qəhrəmanımızda elə o vaxtdan formalaşan hərbi-vətənpərvərlik ruhu İkinci Qarabağ müharibəsində də sanki bir vulkan kimi püskürdü...

**Cavidan daha ətraflı "Şərq"ə danışdı:** "Əslində Aprel döyüşlərinə də çağırılmışdım. Amma o vaxt mənə ehtiyac olmamışdı. Bu dəfə isə könüllü müraciət etdim. Sentyabrın 21-dən etibarən 5 gün təlim keçdim.

Ayın 26-dan isə sıravi əsgər kimi, sürücü vəzifəsində Füzulidə döyüşlərə qatıldım. Füzuli, Cəbrayıl və Xocavənddə döyüşdüm. Əlbəttə, çox çətin idi. Günlərlə ac, susuz, yuxusuz qalırdıq. Döyüş yoldaşlarımızı itirdik. Neçəsi gözümüzün qabağında şəhadətə qovuşdu, yaralandı.

Bizi ən çox sarsıdan isə Gəncə və Bərdənin vurulması idi. Belə vəhşiliyi ağlımıza gətirməzdik. Lakin söhbət Vətənin taleyindən getdiyinə görə, heç bir çətinlik bizi yolumuzdan döndürə bilməzdi.

Hər dəfə daha çox qəzəblə irəliləyir, intiqamımızı aldığımıza görə sevinirdik. Ərazini tanımadığımız üçün harda olduğumuzu bilmirdik. Bakıdan xəbər gələndə ki, filan yer alınıb, sevinirdik.

Bir-birimizlə fərx edirdik. İnanın, ermənilər Azərbaycan əsgərlərindən çox qorxurlar. On erməni hərbçisinin qarşısına cəmi bircə nəfər azərbaycanlı çıxanda elə həmin an silahlarını atıb, az qala, şalvarsız qaçırdılar.

Ümumiyyətlə, ermənilərin bacardıqları ancaq qaçmaqdır".

**Kənan**

# 400-dən çox körpəyə şəhid generalımızın adı verilib

**44 günlük şanlı Vətən savaşından və tarixi qələbəmizdən sonra bir çox valideynlər öz övladlarına qəhrəmanlarımızın adını verir. Misal üçün, yeni doğulan 400-dən çox körpəyə şəhid general-mayor Polad Həşimovun adını qoyublar. Bundan başqa vətəndaşlarımız şəhidlərimizin xatirəsini daima əziz tutmaq üçün onların adına bulaq tikdirir, şərəf lövhələri hazırlayırlar.**

**Seyid Camal Əzimzadə:** *"Bu proseslərin içində iştirak edən bir şəxs kimi məni olduqca narahat edən bir məsələ var"*





Hər kəs qəhrəmanlıq tarixini yazan şəhidlərimizin ruhunu uca tutmaq üçün əlindən gələni edir. Bu çox sevindirici haldır. Torpaqlarımızın qorunması və azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin cəsarəti, əzmi hər bir Azərbaycan gəncinə, vətəndaşına örnəkdir. Hamı öz milli qəhrəmanlarını tanımalı, onların keçdiyi həyat yolundan çox şeyləri öyrənməlidir. Vətənpərvərlik tərbiyəsi də elə buradan başlanır.

**Bununla bağlı tanınmış şərqşünas Seyid Camal Əzimzadə "Şərq"ə öz fikirlərini bölüşərkən qeyd edib ki, gərək valideynlər şəhidlərimizin müqəddəs isimlərini övladlarına qoyarkən onların qarşısında bir ömür məsuliyyət daşıdıqlarını unutmasınlar:** "Bu müharibə nəticəsində Azərbaycan xalqının mənəvi dünyasında uzun illər sonra yenidən bir dirçəliş baş verdi. Hazırda mübarək bir iqlimin şahidi olmaqdayıq. Bu isə çox qürurverici bir haldır. Polad Həşimovdan tutmuş, Mübariz İbrahimov, Fərid Əhmədov və digər minlərlə qəhrəmanlarımızın adının xalqımız tərəfindən yaşadılması çox gözəldir. Bu, milli vətənpərvərlik ruhuna və gələcək nəsillərə vətənin və bayrağın uğrunda şəhadət şərbətini dadan, düşmənə qarşı son damla qanına qədər vuruşanların xalqın könül dünyasında əbədi yer tutduğunun göstəricisidir. Ancaq bu proseslərin içində iştirak edən bir şəxs kimi məni olduqca narahat edən bir məsələ var. Bu adı verdikdən sonra övladlarımızı milli vətənpərvərlik ruhunda tərbiyə etmək, vətənə, dövlətə xeyirli bir övlad olmasını təmin etmək çox vacibdir. Çünki həmin uşaqlar bu cür milli qəhrəmanların adını daşıyır. Əgər insanlar bu adı övladına verdikdən sonra onları vətəninə, bayrağına sevdalı bir tərzdə yetişdirməyəcəksə həmin mübarək ruhlar qarşısında bir ömür məsuliyyət daşıyacaqlar. Ona görə də bu məsələdə ehtiyatlı davranmaq, fikrimcə, ən doğrusu olar".

**Sosioloq Əhməd Qəşəmoğlu da bu barədə fikirlərini "Şərq"ə açıqlayıb:** "Bu, öz vətəni uğrunda vuruşan, canından keçən adamlara qarşı xalqımızın böyük rəğbət hissinin olması deməkdir və çox yaxşı əlamətdir. Biz buna sevinməliyik".

**Aytac Ali**

## Daha 125 nəfər koronavirusa yoluxub

### 71 nəfər sağalıb, 3 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 125 yeni yoluxma faktı qeydə alınıb, 71 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 234 662 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 228 839 nəfər müalicə olunaraq sağalıb, 3 223 nəfər vəfat edib, aktiv xəstə sayı 2 600 nəfərdir.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 4 205, ötən müddət ərzində isə ümumilikdə 2 602 884 test aparılıb.*

## Rusiya terrorçuluqda təqsirləndirilən azərbaycanlını beynəlxalq axtarışa verib




**Rusiyanın hüquq-mühafizə orqanları azərbaycanlını beynəlxalq axtarışa verib.**

APA-nın xəbərinə görə, bu barədə İnterpolun saytında məlumat yerləşdirilib.

Məlumatda qeyd olunub ki, Bakı şəhərində doğulan, 26 yaşlı Malik Nəsrullayev terrorçuluqda və qanunsuz silahlı birləşmələrin tərkibində vuruşmaqda təqsirli bilinir.

Rusiya məhkəməsi tərəfindən onunla bağlı qiyabi həbs qərarı çıxarılıb və barəsində dövlətlərarası axtarış elan edilib.

# Tramvaylar Bakıya qayıda bilər

## Böyük maliyyə lazımdır, amma unikal layihədir

"Velosiped zolaqlarının çəkilməsi, velosiped infrastrukturunun qurulması 2021-ci ilin iş planına əlavə olunub". Bu sözləri Bakı Nəqliyyat Agentliyinin (BNA) Mətbuat xidmətinin rəhbəri Mais Ağayev AzTV-nin efirində yayımlanan "Evimizdə" proqramında deyib.

O bildirib ki, bu gün paytaxtda velosiped infrastrukturu, demək olar ki, yoxdur. Lakin qarşıda velosiped zolaqlarının çəkilməsi nəzərdə tutulur: "2030-cu ilə qədər bizim milli prioritetlərimiz təsdiq edilib. Orada bir bənd yaşıllaşdırma ilə bağlıdır ki, məqsədimiz şəhər nəqliyyatını müasirləşdirməkdir. Bu yolla həm də şəhərin ətraf mühitinin qorunmasını təmin etmiş olacağıq. Bu çərçivədə müxtəlif nəqliyyat növlərini məşhurlaşdırmağa çalışırıq. Bu gün insanlar yalnız şəxsi nəqliyyat vasitələrindən, metro və avtobuslardan istifadə edirlər. Çox istərdik ki, paytaxtda tramvaylardan da istifadə olunsun. Bu istiqamətdə işlər gedir. Eyni zamanda, velosiped sürənlər də nəzərdə tutulur. Bizim əsas hədəflərimizdən biri də odur ki, velosiped yalnız idman həvəsi kimi yox, nəqliyyat növü kimi məşhurlaşsın. Bunun üçün də müəyyən infrastruktur yaradılmalıdır. Təəssüf ki, bu gün velosiped infrastrukturu, demək olar ki, yoxdur. Bəzən özüm də həftəsonu işə velosipedlə getmək istəyirəm, yalnız düşünürəm ki,

### İlk növbədə prospektlərdə yollar sökülməlidir

hansı yolla gedim? Təəssüf ki, getmək olmur. Yollarda velosiped zolaqlarının çəkilməsi, velosiped infrastrukturunun qurulması 2021-ci ilin iş planına əlavə olunub. İlkin olaraq pilot layihə həyata keçirməyə çalışırıq. Əsasən mərkəzi küçələrdə və bulvar ərazisini əhatə edən velosiped zolağının təşkil edilməsi gözlənilir. Daha sonra bir neçə maraq dairəsini birləşdirən zolaqlar çəkiləcək. Məsələn, Bakı Olimpiya Stadionu, Atletlər kəndi, Koroğlu Nəqliyyat Mübadilə Mərkəzi, Gimnastika Arenasını birləşdirən bir velosiped zolağı. Bu da daha sonra bir şəbəkə halını alacaq. Bütün bu işlər nəzərimizdədir".




*"Bundan başqa paralel olaraq velosipeddən istifadəni vətəndaşlarımıza psixoloji olaraq təşviq etmək lazımdır"*

**Nəqliyyat eksperti İlqar Hüseynli "Şərq"ə açıqlamasında bildirib ki, paytaxtda tramvayların nəqliyyat növü kimi yenidən məşhurlaşmasına çox ehtiyac var.** Ekspert qeyd edib ki, Bakıda yenidən tramvay yollarının çəkilməsi kifayət qədər ciddi maliyyə tələb edən bir işdir: "Təbii ki, bunun üçün ilk növbədə bir çox prospektlərdə yolların söküntüsü baş verəcək. Paytaxtımızda tramvay infrastrukturunun qurulması üçün ciddi vəsait lazımdır. Təbii ki, dövlət bu layihəni unikal şəkildə reallaşdıra bilər. Amma söküntü və tikinti işləri zamanı bir xeyli müddətdə şəhərdə ciddi tıxaclar olacaq. Bildiyimiz kimi, tramvay yolu relslər üzərində hərəkət edir və onlar prospektlərin ortasında quraşdırılır".

**İ.Hüseynli əlavə edib ki, ümumiyyətlə, Bakıda yenidən tramvay yollarının çəkilməsi unikal bir layihədir:** "İlk növbədə tramvaylar sayəsində insanlar vaxtlı-vaxtında iş yerlərinə maneəsiz gedəcəklər, yəni işə gecikmə halları baş verməyəcək. Eyni zamanda tramvaylar insanların tıxacda dayanaraq keçirdiyi əsəb, stres faktorlarına da müsbət təsir göstərəcək. Habelə, şəhər ekologiyasına da çox ciddi üstünlük gətirəcək. Bildiyimiz kimi, bu günləri sərnişindaşımada təşkil edilən avtobuslar əsasən dizel yanacağı ilə işləyir. Dizel yanacağından ayrılan zərərli qazlar Bakı şəhərində ekoloji problemlərə səbəb olur. Əgər paytaxtda tramvay, üstəlik, bura trolleybus nəqliyyatını da əlavə etsək, onlar şəhər ekologiyasının yaxşılaşmasında çox əhəmiyyətli rola malik olacaq".

Velosiped yollarına gəlincə, nəqliyyat eksperti vurğulayıb ki, dünyanın bütün ölkələrində velosiped ayrıca nəqliyyat infrastrukturu kimi götürülür: "Çox təəssüflər olsun ki, Azərbaycanda belə deyil. Ölkəmizdə velosipedə sadəcə olaraq gənclərin idman növü, əyləncəsi kimi baxılır. Amma Çində, ABŞ-da, Avropa ölkələrində demək olar ki, bütün prospektlərdə velosipedlərin ayrıca gediş yolları var. İnsanlar o yollarda rahat işə gedib-gəlirlər. Bir məsələni də qeyd edim ki, ABŞ-ın Merilend ştatının ayrıca nazirlik strukturunda velosipedlə məşğul olan böyük bir şöbə var. Yalnız o şöbə velosiped nəqliyyatının idarə olunmasının qanunvericilik əsaslarını həyata keçirir. Yəni xüsusi idarə kimi fəaliyyət göstərir. Bundan başqa paralel olaraq velosipeddən istifadəni vətəndaşlarımıza psixoloji olaraq təşviq etmək lazımdır. Bunu da təbii ki, televiziya və sosial şəbəkələrdə gedən təbliğat vasitələri ilə həyata keçirmək mümkündür. Ümumiyyətlə, vətəndaşlarımızı velosipedlə bağlı psixoloji basqıdan çıxarmalıyıq".

**Aynurə Pənahqızı**

# Türkiyə sonuna qədər terrorçularla savaşacaq



*"Əslində İraqı indiki vəziyyətə salan elə İranın özü olub"*

Azərbaycanı Qarabağ müharibəsində terrorçu istifadə etməkdə ittiham edən İran Türkiyənin PKK terrorçuları ilə mübarizəsinə qarşı çıxıb. İranın İraqdakı səfiri İrec Mescidi Türkiyənin İraq ərazisində apardığı anti-terror əməliyyatlarının "yanlış" olduğunu deyib.

Tehran Ankara hökumətini İraqın suverenliyini pozmaqda suçlayıb və türk qoşunlarının İraqdan çıxması ilə bağlı çağırış edib. Bununla bağlı olaraq İranın Ankaradakı səfiri əfiri Məhəmməd Ferazmend Türkiyənin Xarici İşlər Nazirliyinə çağırılıb. Ferazmendə bildirilib ki, Ankara Tehrandan terrorizmlə mübarizəyə qarşı çıxmaq deyil, bu terrorizmlə mübarizədə dəstək gözləyir. Vurğulanıb ki, iraqlı həmkarının səsləndirdiyi ittihamlar Türkiyə tərəfdən qəti rədd edilir. Çünki Türkiyənin apardığı hərbi əməliyyatlar İraqın təhlükəsizliyini və suverenliyini hədəfə alan PKK ünsürlərinə qarşıdır. Nəzərinə çatdırılıb ki, bu, İraq rəsmi dairələrinə məlumdur və Türkiyə ilə İraq arasında son zamanlar keçirilən yüksək səviyyəli görüşlər isə buna nümunədir. Türkiyə XİN-in xəbərdarlığında həmçinin qeyd olunub ki, səfir Mescidinin müsahibəsində İraqda PKK-nın

> "Tehranı narahat edən əsas məqam Cənubi Qafqazda və Yaxın Şərqdə Türkiyənin güclənməsidir"

mövcudluğundan bir cümlələ də olsa bəhs edilməyib.

**Tehranın narahatlığını "Şərq"ə dəyərləndirən politoloq Əhəd Məmmədli deyib ki, qonşu İranın Azərbaycana və Türkiyəyə mənfi münasibəti arzuolunmazdır.** Analitikin sözlərinə görə, İranın 44 günlük müharibədə Azərbaycana qarşı mövqeyi və ötən gün mətbuat konfransında iranlı müxbirin Prezidentimizə ünvanlandığı uğursuz sual bu ölkənin yanaşmasını ortaya qoyur: "Dünyada radikal qrupları dəstəkləyən ölkə kimi tanınan İran dəfələrlə terrora məruz qalmış Azərbaycan və Türkiyəni "terrorçulara meydan verməklə" suçlayır. Tehranı narahat edən əsas məqam Cənubi Qafqazda və Yaxın Şərqdə Türkiyənin güclənməsidir. Guya indi İraqın suverenliyini özünə dərd edir. Əslində İraqı indiki vəziyyətə salan elə İranın özü olub. Amerika işğalından sonra Bağdadın suverenliyini əlindən alan məhz İrandır. Bu dövlət Tehran tərəfindən idarə olunur. Əgər günahkar Türkiyədirsə, niyə iraqlılar Ankaraya məxsus binalara deyil, birbaşa İran səfirliyinə, konsulluğuna hücum çəkirlər. İraq camaatı türklərdən şikayətçi deyil. Bu gün İraqın daxili işlərinə müdaxilə edən Tehran hökumətidir. Həqiqətən İraqın müstəqilliyini arzulayırlarsa, bu ölkədən əlini çəksin. İmkan versin ki, Türkiyə bölgəni terrorçulardan təmizləsin".

*Ə.Məmmədli vurğulayıb ki, Türkiyə ilə İraq arasında PKK-ya qarşı mübarizə ilə bağlı müqavilə var idi:* "Hələ Səddam Hüseyn zamanında İraqla Türkiyə arasında anlaşma var idi. Razılaşmaya görə, türk ordusu PKK-ya qarşı hərbi əməliyyatlar zamanı ölkə sərhədindən bir neçə kilometr içəriyə girə bilər. Amerika və İranın işğalından sonra İraq öz ərazisinə nəzarəti tam itirib. Həmin bölgədə terrorçuların yuva salması Türkiyənin cənub-şərq sərhədləri üçün risklidir. Ona görə də hərbi əməliyyatlar aparır. İraq şimal ərazilərində təhlükəsizliyi özü təmin edənədək Türkiyənin bölgəyə nəzarət haqqı olacaq".

**İsmayıl Qocayev**

## Mitinqdən sonra çox mətləblərə aydınlıq gələcək

### Proseslər göstərir ki, ABŞ baş naziri hakimiyyətdə saxlamaq istəyir



**Ermənistan Baş naziri Nikol Paşinyan növbəti dəfə "imtahan" verəcək. O, öz tərəfdarlarını mitinqə çağırıb.**

Görünür, baş nazirin "taxt"ından əl çəkmək fikri yoxdur. Paşinyan bəzi ekspertlərin də dediyi kimi, sonadək mübarizə aparmaq istəyir. Elə isə onun bu ambisiyaları nə ilə nəticələnəcək?

**BDU-nun professoru, politoloq Əlimusa İbrahimov "Şərq"ə açıqlamasında mitinq barədə bunları dedi:** "Paşinyan, həqiqətən ciddi təhlükə qarşısındadır və onun hakimiyyətdən uzaqlaşdırılması artıq təhlükəli səviyyəyə çatıb. Xaricdəki havadarları ona küçəyə çıxaraq müraciət etməyin vaxtının gəldiyini bildiriblər.

Hətta bunun üçün icazə veriblər. İkinci bir tərəfdən proseslər göstərir ki, ABŞ baş naziri hakimiyyətdə saxlamaq istəyir. Həmçinin Rusiya da onunla əməkdaşlıq etmək niyyətindədir. Ən əsası isə Paşinyanın həyata keçirməyi qərara aldığı iqtisadi-siyasi islahatlara xarici qüvvələr razılıq veriblər.

Amma bu, hələ də birmənalı olaraq hazırkı iqtidarın hakimiyyətdə qalacağı anlamına gəlməməlidir. Mitinqdən sonra çox şey aydın olacaq".

**Kənan**

## Bayden bir azdan səsini aşağı salacaq

### Azər Rəşidoğlu: "Müəyyən müddətdən sonra tərəflər biri-birləri ilə danışıqlara gedəcəklər"



**ABŞ-da administrasiya dəyişiləndən sonra çox ciddi siyasi proseslər baş verir.**

Prezident Con Bayden "post"una keçər-keçməz öz rəqiblərinə ultimatum göndərib. O, Kremlin Krımı ilhaqını əsla tanımayacağını söyləyib. Bayden, həmçinin Rusiyanın işğal siyasətinin qarşılığında Ukraynanın yanında olacağını deyib. Həmçinin dövlət başçısının rəsmi Tehranın ünvanına dedikləri də ciddi müzakirələrə səbəb olub. O, Suriyadakı son aviazərbələri fonunda İrana "ehtiyatlı olmağı" tövsiyə edib.

Suriyadakı son bombardmanla ABŞ-ın İrana nə kimi siqnal göndərmək istədiyi ilə bağlı jurnalistlərin sualına Bayden - "Cəzalandırılmamış şəkildə addım ata bilməyəcəksiniz", - deyə cavabını verib: "Ehtiyatlı olun".

**Politoloq Azər Rəşidoğlu Baydenin sözügedən bəyanatlarını "Şərq"ə təhlil etdi:** "Əslində hazırkı dövlət başçısı hakimiyyətə gəlməzdən əvvəl bu barədə demişdi. O, ABŞ-ın əvvəlki gücünü bərpa edəcəyinə söz vermişdi. ABŞ supergüc, təkqütblü dövlət iddiasındadır. Amma böyükmiqyaslı savaşın başlayacağına inanmıram. Müəyyən müddətdən sonra tərəflər biri-birləri ilə danışıqlara gedəcəklər". A.Rəşidoğlu, həmçinin region ölkələri ilə ABŞ-ın münasibətlərinin Azərbaycana təsirindən də danışıb: "Biz həmin tərəflərin hər biri üçün önəmli siyasi fiqruq. Balanslaşdırılmış siyasət yeritsək, həmin güc sahiblərinin hər birinin rəğbətini qazana və vəziyyətdən öz xeyrimizə istifadə edə bilərik. Supergüclər arasında ziddiyətli hal Azərbaycan üçün müsbət haldır".

**Kənan**

# Paşinyan göründüyü qədər axmaq deyil

*Baş nazirin tərəfdarlarını mitinqə çıxarması təslim olmaq barədə düşünmədiyinin təzahürüdür*



Ermənistan Baş naziri Nikol Paşinyanı kəndir üzərində gəzən hoqqabaza bənzətsək, yəqin, yanılmarıq. Nə qədər ehtiyatlı, kiçik addımlar atsa da, hələlik yıxılmır. Amma ip getdikcə nazilir və baş nazirin vəziyyəti çətinləşir...

Düşmən ölkədəki aksiyalar getdikcə artır. Sonuncu belə mitinq bir neçə gün əvvəl oldu. Çoxları Paşinyanın "dəfn olunacağını" gözləyirdi. Lakin o, hələ də hakimiyyətdədir. Müxalifət, o cümlədən "Qarabağ klanı" bütün imkanları ilə Paşinyanın gəzdiyi kəndiri kəsib, onu boğazına dolamağa çalışsalar da, hələlik nəyəsə nail ola bilməyiblər. Deyəsən, Paşinyan heç də göründüyü kimi axmaq deyil. Hətta bəzən sərsəm bəyanatlar səsləndirsə belə...

**Ermənistandakı situasiyanı "Şərq"ə təhlil edən BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmləri doktoru Sabir Məmmədlinin sözlərinə görə, hazırkı iqtidar "son nəfəsinədək" mübarizə aparacaq:** "Əvvəla onu deyim ki, son aksiya heç də hərbi çevriliş deyildi. Çünki hərbçilərin fəaliyyətinə rast gəlinmədi. Nə baş nazir həbs edildi, nə də hansısa hökumət binası, o cümlədən parlament nəzarətə alındı. Sadəcə baş qərargah rəisi itaətsizlik göstərdi. İndi nə etmək barədə qərar vermək üçün Prezident Armen Sarkisyanın bir neçə gün vaxtı var. Hər halda proseslər Paşinyanın axıradək mübarizə aparacağını göstərir. Onun tərəfdarlarını mitinqə çıxarması təslim olmaq barədə düşünmədiyinin təzahürüdür. Əslində istefa vermək fikrinin olmadığını özü də dedi. Yəni Paşinyan müxalifətin təqdim etdiyi qədər zəif ziyasi fiqur deyil".

*S.Məmmədlinin sözlərinə görə, hazırkı iqtidar hələ bir müddət dəyişməyəcək:* "Müxtəlif ölkələr, o cümlədən Azərbaycan, Türkiyə, ABŞ, İran, Rusiya Ermənistandakı hadisələrlə bağlı bəyanat verərək bildirdilər ki, proseslər ancaq konstitusion qaydalar çərçivəsində həllini tapa bilər. Kreml Paşinyanı cəzalandırmaq istəyir. Buna baxmayaraq, onun hakimiyyətdə qalmasında maraqlıdır. Paşinyanın istefa verəcəyini və ya hansısa hərbi çevrilişin olacağını düşünmürəm. Proseslər tədricən səngiyəcək, ziddiyyətlər aradan qalxacaq. Kənardan nə qədər xaotik görünsə də, əslində daxili tarazlıq hələ ki, qorunur".

**Kənan**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



Prezident İlham Əliyev tərəfindən yerli və xarici media nümayəndələri üçün 4 saatdan çox davam edən konfransda Azərbaycan və dünya ictimaiyyətinə olduqca mühüm mesajlar çatdırıldı. Dövlət başçısı suallara verdiyi cavablarla bütün dünyaya göstərdi ki, Azərbaycanın Ermənistan üzərindəki möhtəşəm qələbəsi ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir.

# Regionda yeni tarixi fürsət yaranıb

*Mətbuat konfransında beynəlxalq tərəfdaşlarımıza da, Ermənistana da mühüm ismarıclar verildi*

Dövlət başçısı Ermənistanda revanşist qüvvələrin hakimiyyətə gəlmək cəhdlərinə, yenidən müharibə çağırışlarına da diqqət çəkərək "Dəmir yumruğ"un hər zaman yerində olduğunu xatırladıb. Prezident mətbuat konfransı ilə informasiya sahəsində də Ermənistanı tam məğlub edib. Ölkə rəhbəri həm işğal zamanı, həm də müharibə dövründə ermənilərin törətdikləri vəhşilikləri, azərbaycanlılara məxsus müqəddəs yerlərin təhqir edilməsini də jurnalistlərin diqqətinə çatdırıb. Bildirib ki, bütün bu faktları onlar öz ölkələrində işıqlandırmalıdırlar. Həmçinin, dövlət başçısı Ermənistanın Baş naziri Nikol Paşinyanla qurulan təmaslar haqqında ətraflı məlumat verərək, Yerevan hökumətinin yalanlarını növbəti dəfə ifşa edib. Bütün bunlarla yanaşı, dövlət başçımız Qarabağın gələcək inkişafı, görüləcək quruculuq işləri haqqında da fikirlərini bölüşüb. Gələcəkdə regionda yerləşən dövlətlərlə sıx əlaqələrin yaradılacağını söyləyib. Vurğulayıb ki, Ermənistan Azərbaycanla mehriban və qonşuluq şəraitində yaşamağa üstünlük verərsə, bu iki xalqın keçmişdə olduğu kimi gələcəkdə də bir yerdə yaşaması mümkündür. Çünki Azərbaycan hər zaman bölgədə dayanıqlı sülhün və stabilliyin təminatçısı olub. Türkiyənin Qlobal Jurnalistlər Şurasının rəhbərinin sualına cavab verən Prezident əminliklə ifadə edib ki, "Rusiya-Türkiyə" Monitorinq Mərkəzi postmüharibə dövründə çox önəmli alət olaraq fəaliyyət göstərəcək. Dövlət başçısı bildirib ki, Azərbaycan öz vəsaiti hesabına bu Monitorinq Mərkəzini Ağdam rayonunda Mərzili kəndi yaxınlığında yaradıb: "Bildiyiniz kimi, Monitorinq Mərkəzi fəaliyyət göstərir və bunun əsas məqsədi postmüharibə dövrünə nəzarət etmək, monitorinq aparmaq, o cümlədən pilotsuz uçuş aparatların iştirakı ilə, onlardan istifadə edərək münaqişə zonasında qarşıdurma olmasın. Əgər olarsa, kim bunu törədib, təşəbbüskar kimdir, günahkar kimdir, bunu təsbit etməkdir. Bu günə qədər diversiya qrupunun Azərbaycana keçməsini istisna etsək, hər hansı bir ciddi qarşıdurma olmayıb. Bu monitorinq mərkəzi postmüharibə dövrü çox önəmli bir alət olaraq fəaliyyət göstərəcək".

**Dövlət başçısı "Dağlıq Qarabağ" termininin olmadığını, "status" məsələsinin gündəmdən düşdüyünü yenidən xatırladıb:** "Ermənistan və erməni xalqı üçün bu məsələ nə qədər az dilə gətirilərsə, o qədər də yaxşı olar. Çünki Ermənistana və erməni xalqına yanlış vədlər vermək lazım deyil. Onları bu günə salan səbəblərdən biri də məhz o idi. Xülya idi, iddia idi, əsassız istəklər idi. Bu istəklərə rəvac verən bəzi xarici ölkələrin siyasətçiləri də erməni xalqının bu rəzil duruma salınmasında öz rolunu oynadılar. Ona görə status məsələsi, ümumiyyətlə, gündəlikdən çıxmalıdır. Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Faktiki olaraq, biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik. Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir".

Status məsələsinin artıq həllini tapması Ermənistan vətəndaşları və bu ölkənin bəzi siyasi partiyaları, ekspertləri tərəfindən də reallıq kimi qəbul edilir. Bir zamanlar sülh anlaşması müqabilində Azərbaycanın müəyyən şərtlərinə razı olmayanlar, müharibə bahasına yaranmış reallıqdan sonra birmənalı olaraq diktə edən tərəf deyil, diktəyə tabe olan tərəf olduqlarını unutmamalıdırlar. Prezidentin "Faktiki olaraq biz bu gün, ümumiyyətlə, Dağlıq Qarabağ ifadəsini də işlətməməliyik. Qarabağ aranlı-dağlı Azərbaycanın ayrılmaz hissəsidir" bəyanatı kifayət qədər dərin və ciddi məqamdır. Bu bəyanatda Prezident Dağlıq Qarabağ termininin qondarma olduğunu qeyd edir. Terminin tarixinə də nəzər salarkən aydın şəkildə belə bir qənaətə gələ bilərik ki, Dağlıq Qarabağ sözü Azərbaycan ərazilərinin işğalı üçün yol xəritəsi rolunu oynamalı idi.

Prezident İlham Əliyev noyabrın 10-da imzalanmış bəyanatın tam icra edilməsinin zəruri olduğunu vurğulayıb. Ölkə rəhbəri qeyd edib ki, müharibənin nəticələri dəyişməz olaraq qalır və qalacaq. Noyabrın 10-da imzalanmış bəyanat icra edilir və tam icra edilməlidir: "Bəyanatın müddəalarının böyük hissəsi artıq icra edilib. Ancaq elə məsələlər var ki, onlar indi müzakirə mövzusudur. Ümid edirəm, Ermənistanda yaranmış vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış bəyanat icra ediləcək. Əks təqdirdə, Ermənistan daha da ağır duruma düşəcək. Ermənistan qarşısında seçim o qədər də böyük deyil. Onlar yeni reallıqlarla barışmalıdırlar, hesablaşmalıdırlar. Biz yeni reallıqlar yaratmışıq. Bu reallıqla Ermənistan və eyni zamanda bütün başqa ölkələr barışmalıdırlar. Ermənistanın qarşısında ən məqbul seçim 10 noyabr bəyanatının müddəalarını icra etməkdir. Əks təqdirdə onlar üçün daha da böyük problemlər yarana bilər".

"Ermənistan yenə də revanşist cəhdlər edərsə, bu, 90-cı illərdə olduğu kimi, yenidən Ermənistanın özünütəcridinə gətirib çıxara bilər"

*Dövlət başçısı növbəti dəfə xatırladıb ki, istənilən revanşizm cəhdləri Azərbaycan tərəfindən ciddi şəkildə cəzalandırılacaq:* "Heç bir şübhə olmasın ki, biz bu məsələdə tərəddüd etməyəcəyik. Biz hər hansısa bir addımı özümüz üçün substantiv təhlükə görsək, dərhal hərəkətə keçəcəyik. Digər tərəfdən revanşizm cəhdləri olmasa, 10 noyabr bəyanatına uyğun olaraq Ermənistan hərəkət etsə, öhdəliklərini yerinə yetirsə, təbii ki, addım-addım sülh bərqərar olacaq. Biz dayanıqlı sülhə nail olmaq istəyirik. Çünki bu, nifrət dolu kitabın səhifəsini çevirə bilmək üçün yeganə yoldur. İndi müzakirə etdiyimiz məsələ dayanıqlı sülhün və sabitliyin bərqərar olmasıdır. Və buna nail olmağın yeganə yolu əməkdaşlıqdır. Azərbaycan, Ermənistan və Rusiyada müzakirə etdiyimiz layihələrdən biri logistika sahəsində əlaqələrin açılmasıdır, nəqliyyat dəhlizlərinin yaradılmasıdır və bütün məhdudiyyətlərin aradan qaldırılmasıdır . Bu layihə həyata keçirilsə, o zaman Ermənistan təbii ki, bundan yararlanacaq. Onlar sülhün üstünlüklərini görəcək".

**Keçmiş millət vəkili, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev "Şərq"ə açıqlamasında deyib ki, Prezidentin mətbuat konfransı Münhen debatı qədər önəmliydi.** Partiya rəhbərinin sözlərinə görə, dövlət başçısının cavabları Ermənistan və onun havadarları, eyni zamanda Qarabağda yaşayan ermənilər üçün ciddi mesaj xarakteri daşıyırdı: "Azərbaycan ictimaiyyəti onu düşündürən bir çox suala cavab tapdı. Həm də xarici dövlətlər mesajlarını aldılar. Düşmənlərimizə öz mövqeyimizi yenidən xatırlatdıq. Bizə qarşı çıxanlara, çıxmaq istəyənlərə sərt şəkildə münasibətimizi ortaya qoyduq. Gücümüzü bir daha göstərdik, qətiyyətimizi sərgilədik. Bilirsiz ki, Qarabağda rus sülhməramlılarının fəaliyyəti ilə bağlı müəyyən narahatlıqlar var idi. Həmçinin, separatçılar tərəfindən "rus dili" məsələsi ortaya atılmışdı. Ölkə başçısı bu məsələlərlə bağlı konkret fikrini açıqladı. Vurğuladı ki, ölkəmizin hər yerində rəsmi dövlət dili Azərbaycan dilidir. Eyni zamanda sülhməramlılarla və "status"la bağlı rəsmi Bakının yanaşması yenidən dilə gətirildi. Əlbəttə, bunların təkrar bəyan edilməsi çox önəmlidir. Çünki Ermənistanın yenidən silahlandırılması məsələsi də gündəmdədir. Bununla bağlı xəbərlər yayılır. Cənab Prezident ermənilərin yenidən silahlandırılmasına ciddi iradını bildirdi. Dövlət başçısı haqlı olaraq sual etdi ki, "əgər bölgədə sülh və sabitlik üçün çalışılırsa, onda Ermənistan hansı məqsədlə silahlandırılır?". Hesab edirəm ki, Ermənistan ümumiyyətlə silahsızlaşdırılmış dövlətə çevrilməlidir. Bununla bağlı beynəlxalq təşkilatlara müraciət ünvanlamışam. Əgər Ermənistan regionu təhdid edirsə, mütləq silahsız vəziyyətə salınmalıdır. Cəmiyyətimizin bu məsələlərlə bağlı mövqeyi eynidir".

**Millət vəkili Hikmət Babaoğlu da "Şərq"ə vurğulayıb ki, dövlət başçısı Azərbaycan həqiqətlərini çatdırmaqla ölkəmiz haqqında qlobal informasiya məkanına obyektiv məlumatlar vermiş oldu.** Deputatın sözlərinə görə, hər şeydən öncə bu, Xocalı soyqırımı və onun dünyaya tanıdılması, eyni zamanda 44 günlük müharibədən sonra Azərbaycanın regionda yaratdığı yeni geosiyasi reallıqlarla bağlı idi: "Ümumiyyətlə, keçirilən mətbuat konfransı bir sıra ilklərlə yadda qaldı. Suallar doğuran bir sıra məsələlərə aydınlıq gətirdi. Onlardan biri hazırda sülhməramlıların nəzarəti altında olan ərazilərimizə qayıdış məsələsi idi. Prezident Xocalıya da, digər ərazilərimizə də qayıdacağımızı bir daha qətiyyətlə ifadə etdi. İkinci məsələ böyük qayıdışla bağlı planların ardıcıl olaraq həyata keçirilməsi və hansı formada baş tutacağı idi. Aydın oldu ki, bununla bağlı Azərbaycanın dəqiq və düşünülmüş planı var və bu, ardıcıllıqla, mərhələli şəkildə həyata keçiriləcək. Başqa bir mühüm məsələ Azərbaycanın yaratdığı yeni geosiyasi reallığın regionumuza və vəd etdiyi mühüm perspektivlərə bağlı idi. Bu kontekstdə Prezident İlham Əliyev regional və beynəlxalq tərəfdaşlarımıza da, Ermənistana da mühüm ismarıclar verdi. Bəlli oldu ki, Azərbaycanın yaratdığı yeni reallıqlar regionda əməkdaşlıq üçün yeni, həm də tarixi fürsət yaradıb. Əgər bu fürsətdən doğru istifadə olunarsa, bu, bütövlükdə regional və qlobal əməkdaşlıq baxımından olduqca əlverişli şərtlər yarada bilər. Yox, Ermənistan yenə də revanşist cəhdlər edərsə, bu, 90-cı illərdə olduğu kimi, yenidən Ermənistanın özünütəcridinə gətirib çıxara bilər. Nəticədə bu ölkə öz səhvlərini təkrar etməklə əməkdaşlıqdan kənarda qala bilər. Prezidentin fikirləri həm də bəzi ölkələrə bir çağırış idi. Bu çağırış ondan ibarət idi ki, kimsə Ermənistanın olmayan ordusunu modernizə etmək istəyirsə, bu, regiona yaxşı heç nə vəd edə bilməz. Ona görə də hazırkı mürəkkəb tarixi mərhələdə ən doğru yol yeni əməkdaşlıq imkanlarından keçir ki, Azərbaycanın məqsədi də elə budur".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# "Dostluq" yatağı iqtisadi inkişafı tənzimləyəcək

*Türkmənistanla əməkdaşlıq regionda strateji münasibətlərin yeni mərhələyə qədəm qoymasına imkan yaradacaq*



Aşqabad şəhərində "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu"nun imzalanmasını birmənalı olaraq tarixi əhəmiyyətli hadisə adlandırmaq olar.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı-ekspert Eldəniz Əmirov vurğulayıb ki, "Dostluq" adlandırılan bu yataq 32 il idi ki, ölü kapital statusunda saxlanılırdı:** "Belə ki, 1989-cu ildən Azərbaycan neftçiləri tərəfindən kəşf edilsə də, Azərbaycan tərəfindən "Kəpəz", Türkmənistan tərəfindən isə "Sərdar" adlandırdığı bu yatağın potensialından istifadə edilmirdi. Azərbaycan tərəfi zaman-zaman bu yatağın istifadəsi ilə bağlı qarşı tərəfə daha güzəştli, əlverişli şərtlər daxilində yatağın birgə işlənməsi üçün prinsipial həll yolları təklif edirdi. Amma Xəzərin status da daxil olmaqla müxtəlif səbəblərdən, bu istiqamətdə anlaşma əldə edilmirdi. 2018-ci ildə Xəzəryanı dövlətlər arasında qarşılıqlı kompromis və mövqelərin yaxınlaşması nəticəsində "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiya imzalanması yataq probleminin həllini sürətləndirdi. Nəhayət, uzun illərdən sonra ötən ay Azərbaycan və Türkmənistan Hökumətləri arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu imzalandı".

**E.Əmirov qeyd edib ki, yatağa "Dostluq" adının verilməsi düzgün yanaşmadır:** "Adından göründüyü kimi, iki ölkə arasında münasibətlərin inkişafının qorunmasına xidmət edən bir faktor rolunu oynayır. Yatağın bizim üçün olan əhəmiyyətinə gəldikdə isə bu təkcə ölü kapitalın aktiv kapitala çevrilməsilə deyil, ümumilikdə Azərbaycanın neft-qaz strategiyasının inkişafında böyük əhəmiyyətə malikdir. Yataqdan hasil olunacaq neft və qaz Azərbaycanın mükəmməl və əhatəli infrastrukturu və ixrac kəmərləri vasitəsilə daşınacaq. Bir müddət əvvəl tam hazır vəziyyətə gətirilib və istifadəyə verilmiş Cənub Qaz Dəhlizinin aktuallığını artırmış olur. Neft-qaz ixracatçısı olan Azərbaycanın həm də tranzit ölkə kimi əhəmiyyətini artırır. Yatağın ehtiyatlarına və onun bölgüsü haqqında danışarkən bəzən bu bölgünün niyə 30:70 nisbətində Türkmənistanın xeyrinə olması ilə bağlı suallarla qarşılaşırıq. Amma qeyd etmək istəyirəm ki, bu sadəcə kortəbii bölgü deyil. Bu nisbətin əldə edilməsi üçün o yataqların geoloji quruluşu, coğrafi koordinatları, Xəzər dibinin bölüşdirilməsi və s. kimi ciddi prinsiplərin nəticəsi olaraq alınmış bölgüdür. Hazırkı mövcud geoloji kəşfiyyat məlumatlarına görə bu yatağın neft ehtiyatı 60 milyon ton, qaz ehtiyatı isə 100 milyard kub metr olaraq qiymətləndirilir. Razılaşdırılmış bölgüyə əsasən Azərbaycanın payı 18 milyon ton neft, 30 milyard kub metr qaz olaraq hesablaya bilirik. Lakin bu informasiya nisbi xarakter daşıyır və əlavə ehtiyatların mövcudluğu ehtimalı qalmaqdadır. Amma burada daha böyük fayda Azərbaycanla Türkmənistan arasında energetika və nəqliyyat-kommunikasiya sahələrində əməkdaşlığın yeni mərhələyə qaldırılmasındadır. Bu yatağın birgə işlənməsi həmçinin Xəzər dənizinin dibinin bölünməsi üzrə dialoqun və əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edəcək və regionda strateji münasibətlərin yeni mərhələyə qədəm qoymasına imkan yaradacaq".

**Aynurə Pənahqızı**



# Suallar asan olsa, bal toplayanlar çox olacaq

*Təhsil eksperti: "Lakin bizə lazımdır ki, ən istedadlı və bilikli şəxslər magistr pilləsinə yüksəlsinlər"*

Dövlət İmtahan Mərkəzi (DİM) magistratura pilləsinə qəbul imtahanı keçirib. İmtahanlar respublikanın 7 şəhər və rayonunda - Bakı, Sumqayıt, Abşeron, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəranda, ümumilikdə 81 imtahan binasında aparılıb. İştirak üçün 19885 bakalavr ərizə təqdim edib.

İmtahanla bağlı apardığımız müşahidələrdən məlum olur ki, bakalavrlar magistraturaya qəbul imtahanlarından narazıdırlar.

Onların sözlərinə görə, suallar həddindən artıq çətin olub. Bakalavrlar eyni zamanda məntiqlə əlaqədar sualların çox vaxt apardığını, xarici dillə bağlı təqdim edilən mətnlərin isə uzun olduğunu bildiriblər.

**Narazılıqlarla bağlı "Şərq"ə danışan təhsil üzrə ekspert Rafiq İsmayılov söyləyib ki, məntiqlə bağlı sualların cavabını tapmaq üçün müəyyən yollar var. Və bu metodlar o qədər də vaxt aparmır:** "Hətta məntiqlə bağlı sualların cavabını 1 dəqiqəyə tapmaq olur. DİM uzun müddətdir ki, magistraturaya qəbul imtahanı hazırlayır və hər bir məqamı ölçüb-biçirlər. Hər bir məntiqi sualın müvafiq həll yolları var. Həmin yolları mənimsəyəndə tapşırığı çox asanlıqla həll etmək mümkündür. Çox güman ki, narazı olan abituriyentlər həmin üsulları mənimsəməyiblər, ona görə də narazıdırlar".

*Xarici dillə bağlı mətnlərin uzunluğuna gəlincə, ekspert qeyd edib ki, hər zaman bununla bağlı problemlər meydana gəlir:* "Yəni mətni oxuyub sona çatdırmağa vaxt olmur. Lakin müvafiq xarici dil üzrə imtahan verən şəxslərlə söhbət aparmışam. Onlar hər şeyin aydın olduğunu, sadəcə vaxt məhdudiyyətinin olduğunu söyləyirdilər. Xarici dillə bağlı mətnlərə dair bir məsələ var: İstənilən dil üzrə mətni oxuyub anlamaq üçün müvafiq sürətə diqqət yetirmək lazımdır. Bunun üçün çoxlu məşq etmək vacibdir.

DİM adətən sualları tərtib edərkən çoxlu müzakirələr olunur. Məsələn, suallar çətinlik dərəcəsinə görə nəzərdən keçirilir və orta statistika nəzərə alınır. Sözsüz ki, suallar asan olsa, bal toplayanlar daha çox olacaq. Lakin bizə lazımdır ki, ən istedadlı və bilikli şəxslər magistr pilləsinə yüksəlsinlər".

**Yeganə Bayramova**

# 5-10 manata qurban gedənlər...

*İşğaldan azad edilmiş ərazilərə qanunsuz səfərlər dayandırılmalıdır*




"Vəzifəli şəxslər də dövlət maraqlarını və vətəndaşların təhlükəsizliyini qorumalıdır"

Dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, işğaldan azad olunmuş ərazilərə qanunsuz yollarla ayrı-ayrı şəxslərin keçməyə cəhd göstərmələri hallarına hələ də rast gəlinir.

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Tərtər Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş tədbirlər nəticəsində rayonun işğaldan azad edilmiş Talış kəndinə nəzarət postlarından kənar yollarla daxil olmaq istəyən Tərtər rayon sakinləri Taleh Ağalarov və Əsəd Ağalarov saxlanılaraq Polis Şöbəsinə gətiriliblər.

Keçirilmiş digər tədbirlərlə isə rayonun Qapanlı kəndində qurulmuş nəzarət postunda polis əməkdaşlarına tabesizlik göstərərək işğaldan azad edilmiş Ağdam rayonuna keçməyə cəhd göstərən şəxslər də saxlanılıblar.

Araşdırmalarla onların Tərtər rayon sakinləri Amin Əlibəyli və Taleh İbrahimov olduğu müəyyən edilib.

Həmin şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə protokollar tərtib olunaraq rayon məhkəməsinə göndərilib.

**Məsələ ilə bağlı fikirlərini "Şərq"lə bölüşən hərbi ekspert, Qarabağ müharibəsi iştirakçısı Ədalət Verdiyev bildirdi ki, əlbəttə, bu, xoşagələn hal deyil:**

- Cənab Prezident çıxışlarında vətəndaşlara müraciət etdi ki, səbirli olun, həmin ərazilər təhlükəlidir, minalardan təmizlənmə işləri aparılır, keçmiş köçkünlər bir az səbirli olsunlar. Prezident öz çıxışlarında işğaldan azad edilmiş ərazilərdə məskunlaşmaya dair ciddi siqnallar verir. Yəni bilirik ki, iş aparılır, hamımızın da istəyi budur ki, məskunlaşma qısa zamanda başlasın. Amma hazırda təhlükə sovuşmayıb, çünki ərazilərin minalardan təmizlənməsi prosesi davam edir. Bu, çox ağır bir prosesdir. Ona görə biz hər dəfə əhaliyə müraciət edirik, tövsiyə edirik ki, tələsməsinlər. İşğaldan azad edilmiş ərazilərə qeyri-qanuni səfərlərin qarşısını almaq vəzifəsi Daxili İşlər Nazirliyinə həvalə edilib. Polis postları qurulub və polis əməkdaşları təhlükəli zonalara qeyri-qanuni keçidlərin qarşısını almalıdır. Onlar buna məsuliyyət daşıyır. Polisin icazəsi olmadan, polis əməkdaşına tabesizlik göstərərək həmin ərazilərə keçməyə cəhd göstərmək qətiyyən yolverilməzdir. Bu cür halların qarşısının alınması üçün, hesab edirəm ki, DİN əməkdaşları təlimatlandırılmalı, nəzarət tədbirləri gücləndirilməlidir. Vəzifəli şəxslər də dövlət maraqlarını və vətəndaşların təhlükəsizliyini qorumalıdır. Bütün hallarda məsuliyyət polis əməkdaşlarının üzərindədir. Yenə də vətəndaşlarımıza tövsiyə edirəm ki, o ərazilərə qeyri-qanuni keçməkdən, səfər etməkdən çəkinsinlər, 5-10 manata görə həyatlarını risk altında qoymasınlar.

**Məlahət Rzayeva**

# Peyvəndlənmə "oyun-oyuncaq" deyil

Ölkədə koronavirus əleyhinə peyvəndləmə davam edir. Peyvənd olunanların dəqiq sayı bilinməsə də, bugünədək təxminən 100 min nəfər insanın COVİD-19 əleyhinə vaksin vurdurduğu ehtimalları var. Məlumdur ki, peyvəndləməyə yaşı 65-dən yuxarı insanlar və çalışdığı sahə üzrə risk qrupuna daxil olanlardan başlanıldı. Hazırda isə yaşı 50-dən yuxarı olanlara çağırışlar gəlir. Lakin əhali arasında vaksinə inamsızlıq, şübhəli yanaşmalar hələ də qalır.

Bunun əsas səbəbi peyvənd əleyhinə sosial şəbəkələrdə yayılan şayiə xarakterli məlumatlardır. Bəzən hətta tibb mütəxəssislərinin - əsasən də xarici ölkə həkimlərinin dilindən vaksinə etibarsızlıq kəlmələri eşidilir. İnsanlar da istər-istəməz düşünür ki, əgər həkim peyvənddən "uzaq durun" deyirsə, niyə vurduraq? Hətta yerli poliklinika şöbələrində möhtəkir həkimlər də aktivləşib. Poliklinika tərəfindən çağırış almış şəxsi, "qorxma, gəl bura, məsələni həll edərik" deyirlər. Məsələnin "həlli"ni isə belə izah edirlər ki, poliklinikaya gələcəksən, qeydiyyata düşəcəksən, amma sənə gerçəkdə vaksin vurmayacağıq, sadəcə, qeydiyyat aparılacaq ki, guya, vaksin vurdurmusan. Lazəm olan arayışı, sənədi də alacaqsan. Bu təhlükəli üsuldan bəhrələnmək istəyənlər, xarici ölkələrə səfər etmək arzusunda olanlardır. Bilirlər ki, bundan sonra xarici ölkələrə səfər edənlərdən mütləq



Həkim əsassız xəbərlərə inanmamağa, bəzi möhtəkir həkimlərin toruna düşməməyə çağırdı

*Hansısa kənddə yaşayan ahıl insana "çip" yerləşdirmək kimə və nəyə gərəkdir?*

COVİD-19 peyvəndi tələb olunacaq, ona görə saxta arayış almaq istəyirlər. Kimisi də həqiqətən peyvənd olunmaqdan çəkinir, bəzi həkimlərin açıqlamaları sayəsində.

**Həkim-infeksionist Mərdan Əliyev "Şərq"ə açıqlamasında əhalini əsassız xəbərlərə inanmamağa, bəzi möhtəkir həkimlərin toruna düşməməyə çağırdı:**

- Biz hazırda Şamaxı rayonundayıq. Hər gün 250-300 nəfər insan peyvənd olunur. Yalnız qarlı günlərdə sayda bir qədər azalma oldu. Hələ belə bir halla qarşılaşmamışıq ki, kiməsə peyvənd vurulmasın, amma hansısa arayış, sənəd verilsin. Peyvəndləmə çox ciddi məsələdir. Vaksin flakonları sayılır, gün ərzində neçə flakon vuruldu, neçə nəfərə vuruldu, dəqiq qeydiyyat aparılır, hər dəfə vaksin vurulduqdan sonra da boş flakonlar təhvil alınır. Necə ola bilər ki, kimsə poliklinikaya, yaxud klinikaya gəlsin, qeydiyyata düşsün, lakin ona həqiqətdə vaksin vurulmasın?! Bu, mümkünsüz işdir. Kim, hansı həkim, poliklinika işçisi bunu vətəndaşa deyirsə, birbaşa məsuliyyət daşıyır. Mən insanlarımıza bir daha deyirəm ki, belə insanlara aldanmasınlar. Vaksinasiya könüllüdür. Amma biz peyvənddən imtina edənləri başa salmağa çalışırıq ki, bu, sizin sağlamlığınız üçün lazımdır. Yoluxa bilərsiniz, ağır keçirə bilərsiniz xəstəliyi, üstəlik başqalarını da, ailə üzvlərinizi də yoluxdura bilərsiniz. Əks göstəriş olanlar peyvənd edilmir. Amma o kəslər ki, peyvəndlə bağlı heç bir əks göstərişləri yoxdur, onlar peyvənd olunmalıdır. Peyvəndləmə prosesi ciddi nəzarət altında həyata keçirilir. Peyvənd olunanlara koronavirus pasportu verilir. Həmin sənəddə vaksinin dozası, vurulma tarixi yazılır, poliklinika və ya klinikanın möhürü olur. Yəni bu, "oyun-oyuncaq" deyil ki, kiminləsə "falş" peyvənd oyunu oynanılsın. Əhalimiz, vətəndaşlar belə şeylərə aldanmasınlar.

***M.Əliyev koronavirus peyvəndi ilə bağlı əsassız şayiələrin yayıldığından xəbərdar olduqlarını bildirdi:***

- Təəssüf ki, belə şayiələr yayılır. Bəzən də həkimlərin rəyi təhrif olunmuş formada təqdim edilir. Bu da insanlarda inamsızlıq yaradır. Hətta bir ara şayiə yayılmışdı ki, peyvənd zamanı insanların orqanizminə "çip" yerləşdirirlər. Savadlı, bilikli insanlar belə xəbərlərin əsassız və gülünc olduğunu anlayır. Axı iynənin ucuna yerləşə biləcək "çip" yoxdur. Bu "çip" deyilən şey insan qanında nə qədər qala bilər ki?! Müxtəlif yollarla bədəndən xaric olunub gedəcək. Hansısa kənddə yaşayan ahıl insana "çip" yerləşdirmək kimə və nəyə gərəkdir? İnsanlar bunları sakit düşünsə, hamısının şayiə olduğunu anlayacaqlar.

*Qeyd edək ki, Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov vətəndaşlara müraciətində vaksinasiya cədvəlinə laqeyd yanaşmamağa çağırıb. Həkim-infeksionist Mərdan Əliyev də koronavirusla mübarizədə peyvəndlənmənin çıxış yolu olduğunu bildirdi:*

- Bəşər tarixində pandemiyalar, epidemiyalar həmişə olub. İnsan toplu halda yaşayırsa, bu, qaçılmazdır. Lakin pandemiyaların qarşısı peyvəndləmə ilə alına bilər. Keçmişdə müxtəlif yoluxucu xəstəliklər olub, hansılar ki, artıq yoxdur. Bu xəstəliklərin sıradan çıxması məhz peyvəndləmə sayəsində mümkün olub. Odur ki, biz də vətəndaş məsuliyyətini dərk edərək peyvəndləməyə laqeyd qalmamalıyıq.

*M.Əliyev koronavirus əleyhinə hazırkı vaksinlərin COVİD-19-un mutasiyaya uğramış digər növlərinə qarşı da effektiv ola biləcəyi məsələsinə də toxundu:*

- Bu peyvəndin digər növlərə qarşı da effektli ola biləcəyi, nəzəri cəhətdən ehtimal edilir. Lakin praktikada hələ təsdiqini tapmayıb.

**Məlahət Rzayeva**

# Təhsil harda, necə axsadı?

## *Milli qiymətləndirmə sistemi şagirdləri hərtərəfli araşdıracaq*

5-12 mart tarixlərində III, VI və VII sinif şagirdləri arasında milli qiymətləndirmə təşkil ediləcək. Təhsil Nazirliyindən verilən məlumata görə, məqsəd ümumi təhsil pilləsində keyfiyyət göstəricilərini müəyyən etməkdir. 7000-ə yaxın şagirdin iştirakı nəzərdə tutulan milli qiymətləndirmə əyani formada təşkil olunacaq. Qiymətləndirmə COVID-19 pandemiyasının tələb etdiyi gigiyenik şərtlərə uyğun olaraq ölkənin təsadüfi seçilmiş 20 regionunda keçiriləcək.

*Qeyd edək ki, milli qiymətləndirmənin nəticəsi şagirdlərin məktəbdaxili qiymətləndirmə üzrə nəticələrinə təsir göstərmir. Bu qiymətləndirmə tədqiqat xarakteri daşıyır və tədris ili ərzində mütəmadi təşkil olunacaq. Tədqiqatın nəticələri əsasında şagirdlərə dəstək üsulları hazırlanacaq.*

**Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında qeyd edib ki, sistemli tədqiqat şəklində aparılan qiymətləndirmənin məqsədi etibarlı məlumatların toplanması, təkliflərin verilməsi, problemlərin həlli üçün konkret istiqamətlərin müəyyənləşdirilməsidir.** O bildirib ki, şagirdlərin təlim nəticələri haqqında toplanmış məlumat sistemli olmadıqda müəyyən prinsiplərə - məlumatın toplanması, təhlili, istiqamətlərin müəyyənləşdirilməsi, problemlərin həllinə əsaslanmış monitorinqin aparılmasında da çətinliklər yaranır: "Qeyd edim ki, əsas məqsəd şagirdlərin təlim nəticələrinə təsir edə bilən amilləri öyrənməklə yanaşı təhsilin vəziyyəti haqqında məlumat toplamaq, perspektivləri, gələcək fəaliyyəti müəyyənləşdirməkdir. Milli qiymətləndirmə də sistemi araşdırmanın tələblərinə cavab verən tədqiqatdır".

*K.Əsədov əlavə edib ki, əgər milli qiymətləndirmənin əsas məqsədi təhsilə təsir edən konkret bir faktı öyrənməkdirsə, tədqiqat sualı da özündə bu problemi əks etdirir:* "Məsələn, xüsusi məqsəd şagirdlərin sosial bilik və bacarıqlarını yoxlamaqdırsa, qiymətləndirmə vasitələrində tətbiqi tapşırıqlara yer ayrılır. Şagirdin məişətdə davranışını, hesablama qabiliyyətini, texniki vasitələrdən istifadə bacarığını, fikrini ifadə edə bilməsini və ümumiyyətlə, həyati bacarıqlarını yoxlayan qiymətləndirmə vasitələri ilə təhsil standartlarına diaqnoz qoyulur. Onların bu sahədə gələcək fəaliyyəti müəyyənləşdirilir. Qeyd edim ki, əvvəllər qiymətləndirmə ənənəvi qaydada keçirilsə də, pandemiya səbəbindən 19 dekabr 2020-ci ildə bu qiymətləndirmə onlayn qaydada həyata keçirildi. Bu zaman ciddi şəkildə kənar müdaxilələr oldu və vəziyyət heç də ürəkaçan olmadı. Belə ki, pandemiyaya görə, onlayn qaydada aparılan milli qiymətləndirmə bir çox təhsil iştirakçısının dili ilə desək, sanki "milli



köçürmə, köməkləşmə günü"nü xatırlatdı. Apardığımız monitorinqlərdən belə məlum olur ki, onlayn formada həyata keçirilən imtahanda şagirdlər arasında kənardan kömək alaraq sualları cavablayanlar kifayət qədər çox olub. Bu işdə onlara qohumlar, valideynlər, tanışlar, bəzi hallarda müəllimlərinin özü də köməklik göstərib".

**K.Əsədov vurğulayıb ki, daha bir məqam isə imtahan günü yaşanan texniki problemlərlə bağlı olub:** "Belə ki, şagirdlər dərslərinə bir neçə aydır "Virtual məktəb" platformasından davam etsələr də, əvvəlcədən təlimatlandırma olmadığına görə imtahan günü çaşqınlıq içində qalanlar da olub. Eyni zamanda da bir sıra yerlərdə internet, işıq problemi yaşanıb, şagirdlər testləri tamamlaya bilməyiblər. Birmənalı şəkildə qeyd edirəm ki, bu qiymətləndirmə şagirdlərin orta məktəb qiymətlərinə hər hansısa formada təsir göstərmir".

**Aynurə Pənahqızı**

# Təyyarə biletlərinin qiyməti aşağı salınmalıdır



*Düzgün qiymət siyasəti aparsaq, ölkəmizə turist axını cəlb edə bilərik*

Turizm sahəsi istər regionların inkişafı, istərsə də iqtisadi potensialının gücləndirilməsi üçün çox vacib məsələdir. Lakin pandemiya səbəbindən bir çox sahə kimi turizm sektoru da iflic vəziyyətə düşüb.

Ölkələr arasında hava, quru və dəniz nəqliyyatı əlaqələrinin qapadılması, turist səfərlərinə tətbiq edilən qadağalar bütün dünyada olduğu kimi Azərbaycanda da turizm sektoruna mənfi təsir göstərib. Buna görə də Azərbaycanda turizm sahəsinin postpandemiya dövrünə hazırlığı istiqamətində müəyyən addımlar atılmalıdır. **İqtisadçı-ekspert Natiq Cəfərli turizm sektorunu inkişaf etdirmək üçün nə etmək lazım olduğunu ”Şərq”ə danışıb.** Onun sözlərinə görə, qonşu ölkələrlə rəqabət apara bilmək üçün bu sahədə qiymət siyasətini düzgün tənzimləmək önəmlidir: ”Bütün dünyada pandemiyadan ən çox ziyan görən sahə turizm sektorudur. O cümlədən Azərbaycanda da turizm göstəriciləri 80-90 faiz azalıb. Bu sahədə rəsmən 24 min nəfər çalışırdı və hazırda minlərlə insan işsiz qalıb. Koronavirus infeksiyasının qarşısını almaq üçün tətbiq edilən məhdudiyyətlər üzündən həm daxili, həm də xarici turizm inkişaf edə bilmirdi . Hazırda ölkə içərisində gediş-gəliş bərpa edilib deyə, daxili turizm az da olsa dirçəlib. Lakin gələcəyə hazırlaşmaq üçün indidən işlər görülməlidir. Bunun ən vacib elementlərindən biri Azərbaycana hava yolu ilə turistlərin gəlməsi üçün qiymətlərin ucuzlaşdırılması yönündə müvafiq addım atılmasıdır. Daha çox aviaşirkətlərin ölkəyə dəvət edilməsi, müqavilələrin bağlanması bu addımlara misal ola bilər. Uçuşların ucuz qiymətə olması Azərbaycana marağın artmasına və daha çox turistin ölkəmizə gəlməsinə kömək edə bilər. Bundan başqa turizm obyektlərində də qiymətlərin artmamasına diqqət etmək mütləqdir. Bu obyektlər uzun müddət işləmədiyinə görə vəziyyət düzələrkən obyekt sahibləri gərək qiymətləri qaldırmağa həvəslənməsinlər. Bu onların ziyan etməsinə səbəb olacaq. Əgər düzgün qiymət siyasəti aparsaq, bunun sayəsində ölkəmizə daha çox turist cəlb edə bilərik. Unutmayaq ki, bu sahədə qonşu dövlətlərlə də güclü rəqabət yaranacaq. Əgər onlar qiymətləri daha aşağı etsələr, turistlərin bizi seçmək şansı azalacaq. Bu barədə Gürcüstanda çox güclü iş gedir. Düşünürəm ki, həmin ölkənin də təcrübəsini öyrənib tətbiq edə bilərik. Eyni yanaşma və məntiqlə Azərbaycan postpandemiya dövründə turizm sektoruna hazırlaşmalıdır”.

**Aytac Ali**

## Bakıda 22 yaşlı oğlan qətlə yetirilib



**Dünən saat 13 radələrində paytaxtın Xətai rayonu, N.Tusi küçəsi 18 ünvanında yerləşən binanın qarşısında 1999-cu il təvəllüdlü Nəsibov Bəxtiyar Əli oğlunun üzərində xəsarət izləri olan meyitinin aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.**

Xətai rayon prokurorluğundan APA-ya verilən məlumata görə, cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Aparılmış ilkin araşdırmalarla Bakı şəhər sakini, 2002-ci il təvəllüdlü Abbasov Əli Allahverdi oğlunun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı Bəxtiyar Nəsibovun döş qəfəsinin sol nahiyəsinə kəsici-deşici alətlə xəsarət yetirərək sonuncunu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Xətai rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, müvafiq ekspertizalar təyin edilib.

Hazırda Əli Abbasovun yerinin müəyyən edilərək şübhəli şəxs qismində tutulması istiqamətində intensiv əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri davam etdirilir.

## Dərsliklərimiz heç vaxt mükəmməl olmayıb

“Bir məsələni 5 ali təhsilli insan həll edə bilmirsə, deməli o, həqiqətən çətindir”



**Zaman-zaman valideynlər aşağı sinif dərsliklərindəki çalışmaların, misalların çətinliyindən, uşaqların yaş səviyyəsinə uyğun olmamasından şikayətlənirlər. Onlar haqlı iradlarını ya müəllimlərə, ya da sosial şəbəkələrdə aidiyyəti qurumlara bildirirlər.**

Bu yaxınlarda jurnalist Gülnar Baxşıyeva da sözügedən problem haqqında feysbuk səhifəsində status yazıb: ”Azərbaycan Respublikası Təhsil Nazirliyi (qurumun səhifəsini tağ edib-.red), 2-ci sinif dərsliyinə saldığınız 5 nəfər ali təhsilli adam həll edə bilmir. Bizmi savadsızıq, yoxsa sizin vəsaitlərmi yerində deyil?”.

Həmkarımızın paylaşımına təhsil eksperti Kamran Əsədov da rəy əlavə edib: ”Dərsliklər şagirdlərin yaş xüsusiyyətlərinə uyğun deyil”. **Mövzu barədə ”Şərq”ə danışan təhsil eksperti Nabatəli Qulamoğlu məsələ ilə bağlı birmənalı fikir səsləndirməyin çətin olduğunu düşünür:**

”Ona görə ki, dərslik hazırlamaq ağır işdir. İnanın ki, qrup şəklində dərslik hazırlamaq da uğursuz alınır. Çünki məsələlər mürəkkəb və vektorludur. Kimsə nəyisə yaddan çıxara bilir. Bu proses zamanı ümumi müzakirə olmalıdır. Sosial şəbəkələrdə qruplar var, orda dərslik variantlarını paylaşırsan, hər kəs öz fikrini yazır. Müəllim kollektivi yekun nəticəyə gəlir və onların ağlabatan təklifləri nəzərə alınır. Bu da dərsliklərin həmişə mükəmməl olduğu mənasına gəlmir. Nöqsanlar da ola bilər. Təəssüf ki, bəzən ciddi qüsurlar da görürük. Lakin bugünkü dərsliklərlə 10 il əvvəlkilərə baxanda görürük ki, xeyli irəliləyiş var. Güman edirəm ki, problemlər də aradan qaldırılacaq. Bir məsələni 5 ali təhsilli insan həll edə bilmirsə, deməli o, həqiqətən çətindir. 2011-2013-cü illərdə şagirdlərimiz beynəlxalq yarışlarda yaxşı nəticə göstərə bilməmişdilər. Amma ordakı məsələlər belə çətin deyildi. Sadəcə biz istifadə etmirdik, yeni tipli idi. Kitabdakı bir çətin misalı şagird həll edə bilmirsə, onu məktəbdən qovmurlar, qiymətini aşağı salmırlar. Müəllimə deyilməlidir, o da tənqidləri normal qarşılamalıdır. Yenə də təkrar edirəm, bu sahədə inkişaf müşahidə olunur. Hətta 2008-2009-cu illərdəki dərsliklərin hər səhifəsində qüsur var idi. Ona görə müəyyən təcrübə əsasında inkişaf gedir, gedəcək də”.

**Samirə Ərəblinski**

# Böyük xərclər tələb olunacaq

*“Google”, “Facebook”, “Amazon” kimi şirkətlərə alternativlər yaratmaq çətin məsələdir*




"Əslində müəyyən tənzimləyici addımlar atmaqla, mövcud resurslardan bəhrələnmək bəlkə də ən doğrusu olardı"

Türkiyə Prezidenti yanında Rəqəmsal Dəyişiklik İdarəsinin rəhbəri Ali Taha Koç, texnologiya sahəsində dünya nəhəngləri olan şirkətlərə alternativlərin ortaya çıxarılmasını hədəflədiklərini bildirib.

”Google”, ”Facebook”, ”Amazon”, ”Microsoft”, ”Apple” şirkətlərinin texnologiya sahəsindəki gücünə qarşı ”yerli və milli” alternativlərin çıxarılmasını istədiklərini deyən Koç vurğulayıb: ”Möhtərəm Prezidentimiz həmişə deyir ki, ”dünya beşdən böyükdür”. Mən də rəqəmsal anlamda ona oxşar fikri deyirəm: Dünya GAFAM-dan böyükdür. GAFAM, yəni, Google, Apple, Facebook, Amazon, Microsoft. Google, bizim bütün axtarış sistemlərimizi bilir. Apple həm kompüterimizi, həm də telefonumuzu bilir. Biometrik məlumatlarımızdan başqa barmaq izlərimizi də götürüb. Facebook kimi sevib-sevmədiyimizi, nə yeyib-içdiyimizi belə bilir. Amazon, necə alış-veriş etdiyimizi, hansı filmləri izlədiyimizi, nəyi xoşlayıb-xoşlamadığımızı bilir. Microsoft, istifadə etdiyimiz bütün əməliyyat sistemlərimiz barədə məlumatlara malikdir”.

Koç, ”bu şirkətlər bu qədər çox məlumata malik olduğu halda sizin müstəqillik və demokratiyadan danışmağınız bir az çətindir. Çünki bu beş korporasiya sizinlə bağlı bir çox dövlətin bildiyi məlumatdan daha artığını bilir. Əgər bu korporasiyalar əllərindəki bütün məlumatları biribirləri ilə paylaşsalar halımız pis olacaq. Bu prizmadan baxıldığında məlumat təhlükəsizliyi bizim sərhədlərimizin təhlükəsizliyi qədər önəmli və əhəmiyyətlidir”, deyə bəyan edib.

**Mövzu ilə bağlı fikirlərini ”Şərq”ə bölüşən Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz bildirib ki, ”yerli və milli” alternativlərin çıxarılması bir qədər çətin prosesdir.** Onun sözlərinə görə, bu cür layihələr xüsusilə auditoriyanın böyük olduğu yerlərdə daha çox üstünlük qazanır: ”İlk növbədə bu cür layihələrin reallaşması üçün böyük kütləvi auditoriya lazımdır. Düşünürəm ki, əgər bu ancaq lokal türk dünyası üçün nəzərdə tutulursa, bunun uğurlu olacağı bir qədər şübhəli görünə bilər. Nəzərə alaq ki, burada Google, Apple və digər qlobal rəqəmsal resurslar üçün bazar elə də böyük deyil. Amma təbii ki, bazarda 70 milyona qədər sosial media istifadəçiləri var”.

*O.Gündüz hesab edir ki, ”yerli və milli” alternativlərin oturuşması üçün böyük xərclər tələb olunacaq:* ”Bura marketinq, reklam xərcləri və s. daxildir. Fikrimcə, əslində müəyyən tənzimləyici addımlar atmaqla, mövcud resurslardan bəhrələnmək bəlkə də ən doğrusu olardı. Düzdür, son dövrlərdə Türkiyənin bu istiqamətdə uğurlu addımları var. Məsələn, Youtube, Facebook, Google bir neçə resurs var ki, artıq onlarla müəyyən anlaşma var. Yaxud da ki, Türkiyənin qanunvericiliyinin pozulmaması və reklam xərclərindən istifadə olunması şərtləri daxilində müəyyən anlaşma əldə olunubdur. Onlar artıq orda fəaliyyət göstərirlər. Amma alternativ belə yerli resurslar çox böyük xərclər tələb edir. Əgər yetərincə vəsait varsa, düşünürəm ki, bu məqbul ola bilər. Yoxdursa, hesab edirəm ki, bu elə də asan uğur qazanan layihələr deyil”.

**Aynurə Pənahqızı**

# “Yuxu iflici”nin müalicəsi yoxdur

## Ta qədimdən indiyə kimi bu sindrom araşdırılır



Bəzən yaşadıqlarımızı doğmalarımıza belə deməyib, onları sirr kimi saxlayırıq. Təsəvvür edin, rahat yatmısız, gecə yarı qəfildən oyanırsız və hiss edirsiz ki, bədəninizin heç bir üzvünü, heç barmaqlarınızı belə tərpədə bilmirsiz.

Qaranlıq, səssizlik, yanınızda yatan varsa, o da bundan xəbərsiz. Bu zaman sizə elə gəlir ki, sinənizin üstündə və ya yanınızda, böyrü üstə yatmısızsa, kürəyinizin arxasında qəribə bir varlıq dayanıb. Onun nəfəsini aydın hiss edirsiz. Qorxudan qışqırıb köməyə çağırmaq istəyirsiz, amma nə qədər güc gəlsəz də səsiniz çıxmır. Boğazınız da iflicdir. Siz həm varsız, həm də yox. Elə bilirsən öləcəksən. Sondur. Ya da bu dəqiqə qorxulu varlıq səni boğacaq. Təslim olursan və ... 1 dəqiqə sonra ayaq barmaqlarından başlayaraq bədənin hərəkətə gəldiyini hiss edirsən. Getdikcə bütün bədənin açılır. Çox adam sonradan yatır, çoxu isə gözünü qaranlığa dikib qalır və bir neçə gün bu qorxunun təsirindən çıxmır. Məhz bu hala tibdə ”Yuxu iflici” deyilir və insan sağlamlığı üçün həyati təhlükəli deyil. Qədimdən loğmanların, din xadimlərinin də diqqətində olan bu sindrom tibdə də araşdırılıb. Düzdür, səbəbi dəqiq deyil və müalicəsi də yoxdur.

"Bəzi nevroloji xəstəliklər də yuxu iflicinə səbəb olur"

**”Şərq” tibbi izahı olan bu sindromu araşdırıb, həkim açıqlaması əldə edib. Həkim-nevroloq Pərviz Axundov açıqlamasında bildirib ki, yuxu zamanı iki faza müşahidə edilir - NREM (en. non-rapid eye movement)** və REM (en. rapid eye movement). Həkimin sözlərinə görə, bu fazalar göz hərəkətlərinə görə bölünür: ”REM zamanı sürətli göz hərəkətləri müşahidə edilir. Hər iki fazanın davam etmə sikli təxmini 90 dəqiqə davam edir və səhərə qədər bir neçə dəfə bu təkrarlanır. Gecənin dərin saatlarında NREM üstünlük, səhərə yaxın saatlarda isə REM fazası üstünlük təşkil edir. REM fazası zamanı bədənin əzələləri bəzi istisnalarla hərəkətsiz vəziyyət alır, bu faza bitmədən insan oyanarsa, şüur oyanıq olsa da, insan danışa və hərəkət edə bilməz”.

**P.Axundov əlavə edib ki, bu vəziyyət genetik ola bilər:** ”Bəzən bipolyar pozuntusu olanlarda rast gəlinə bilər, bəzən də bəzi dərman maddələrinin, narkotiklərin təsirindən ola bilər”.

Həkim qeyd edib ki, bəzi nevroloji xəstəliklər də yuxu iflicinə səbəb olur: ”Əgər bu hal baş verirsə, elə hərəkətsiz qalın. Əgər güclə hərəkət etməyə cəhd etsəz, bu, bədənə və beyinə təsiri artırıb, neqativ hisslər verəcək”.

**Aynurə Pənahqızı**

# Bakı-Sumqayıt yolundakı tıxacı birdəfəlik həll etmək olar

Bakı-Sumqayıt magistralında yolun genişləndirilməsi ilə bağlı görülən tədbirlər də bir nəticə vermədi. Nəticədə isə səhər saatlarında yolun Sumqayıtdan Bakıya gələn hissəsi, axşama yaxın isə Bakıdan Sumqayıta gedən tərəfində böyük tıxaclara səbəb olur. Demək olar ki, hər gün eyni vəziyyət yaşanır və bu proses davam edir.



*Ən ideal variant "Koroğlu"dakı asma körpünün kiçik modelini Xırdalan dairəsində qurmaq idi*

**Nəqliyyat üzrə ekspert Elməddin Muradlı ”Şərq”ə bildirdi ki, əslində problemin köklü həll edilməsi üçün fikir bildirilib, amma Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi ənənəyə sadiq qalaraq işi yarımçıq gördü:** ”Bakı-Sumqayıt yolunda görülən işlər qismən də olsa öz nəticəsini verdi. Amma təəssüf ki, verilən təkliflərə baxılmadı. Şəxsən mən özüm problemin köklü şəkildə həll edilməsi üçün dəfələrlə təklif irəli sürmüşəm.

Belə ki, məsələni köklü həll etmək üçün ”Koroğlu” metrosunun yaxınlığındakı asma körpünün kiçik modelini Xırdalan dairəsində qurmaq lazım idi.

Həmin körpü orda olsa Sumqayıt istiqamətində hərəkət edib Xırdalana dönmək istəyənlər həmin yoldan maneəsiz keçid edə bilərlər. Amma bunu etmədilər. Əvəzində zolaqlar genişləndirildi. Lakin yenə də bəzən tıxacın uzunluğu ekologiya postuna qədər çatır.

Bəzi sürücülər də qabağa düşmək üçün kobud şəkildə manevr qaydalarını pozurlar. Yəni problemin əsası sırf Xırdalana ayrılan yolun düzgün istifadə olunmamasıdır.

Biz təklif elədik ki, vəsait ayrılırsa, yol bir dəfə bağlanırsa, problem birdəfəlik həll edilsin. Amma AAYDA ənənəyə sadiq qalaraq işi yenə də yarımçıq həll etdi. Bu gün də onun ağır fəsadları özünü göstərir.

Orada gediş-gəlişi bir neçə obyekti söküb həll etmək olardı. Amma ən ideal variant ”Koroğlu”dakı asma körpünün kiçik modelini Xırdalan dairəsində qurmaq idi. Bununla problem əbədi həll olunardı”.

**Ağarza Elçinoğlu**

## Sürətli qidalanma ciddi fəsadlar yaradır

### Belə olduqda mədəyə ziyan verir, həzm problemlərinə gətirib çıxarır



**Sürətli şəkildə qidalanma alışqanlığı kökəlmə, mədə və bağırsaq kimi sağlamlıq problemlərinə səbəb olur. Mütəxəssislər yemək vaxtının 20 ilə 30 dəqiqə arasında olmasını vurğulayırlar. Çox sürətli yemək həm də qidaların qana tez qarışmasına və artıq kalori qəbul etməyimizə səbəb olur.**

Yeməyi çeynəmə vaxtı da önəmlidir. Ümumiyyətlə, sürətli yemək ac olan zaman mədəyə çox zərər verir.

*”Şərq” türk mediasına istinadən tez zaman kəsiyində qidalanmanın zərərlərini açıqlayır.*

”Trthaber.com”un məlumatına görə, sürətli yeyərkən mədə və beyin toxluq hissini qəbul edə bilmir. Bu da insanın tox olmasına baxmayaraq, yeməyə davam etməsinə imkan verir. Halbuki, nə qədər yavaş yesək, toxluq hissi bir o qədər güclü olar.

Qidalanma çox sürətli şəkildə olduqda həzm problemi və piylənmə dərəcəsi olduqca yüksəkdir. İnsanlar yeməyi 13-15 dəfə çeynəyərək tədricən uzun yemək vaxtlarına alışa bilərlər. Türkiyəli həkim-professor Nur Ozman sürətli yeməyin çox pis vərdiş olduğunu bildirib: ”Qidanı çox çeynəməməyimiz mədə-bağırsaq sistemi xəstəlikləri, piylənmənin altında yatan əsas amillərdən biridir. Belə yemək tərzi qidaların həzmini çox uzadır. Bu da həzmsizlik, şişkinlik kimi bəzi problemlərə səbəb ola bilər”.

**Yeganə Bayramova**

## “Rus yuxusu"cəzası

### Məhbəsdə yuxusuz saxlanılan məhkumlar bir-birini yeyiblər

*(Əvvəli səh: 16-da)*





**Təcrübənin 12-ci günü isə dustaqlardan heç bir səs gəlməyib. Alimlər oksigen səviyyələrini və mikrofonları yoxladıqda ciddi problem olmadığını görüblər.**

2 gün gözlədikdən sonra türmə nəzarətçiləri içəri giriblər və gördükləri mənzərə qarşısında dəhşətə gəliblər. Məhbuslardan birinin öldüyünü görən nəzarəçilər digərlərini yerdə uzanmış vəziyyətdə, dəriləri isə parça-parça olmuş halda görüblər. Yerdə qan və qusmaq izləri də varmış. Yuxusuz qalan dustaqlar bir-birinin ətini yeməyə başlayıblar və əməlli-başlı zombiləşiblər. Hətta gözü dönmüş bir neçə məhbus nəzarətçiyə hücum çəkərək onu parçalayıb və öldürüblər. Ən maraqlısı isə odur ki, əvvəlcə çölə çıxmaq üçün dil tökən məhbuslar 15 gündən sonra içəridən çıxmağı rədd ediblər. Lakin sonra məhbusların hamısı ”təhlükəli varlıq” kimi öldürülüb.

**İsmayıl**

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu: Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 438




## Mako dünyanın ən sürətli köpəkbalığıdır

**Meksikada çimərlikdə "Mako köpəkbalığı" tapılıb. İnsanlar köpək balığına yaxınlaşanda bir reallıq ortaya çıxıb.**

"Şərq" qəzeti xəbər verir ki, köpəkbalığının "rajiformers"lə toqquşduğu məlum olub. Mako dünyanın ən sürətli köpəkbalığıdır (saatda 75 kilometr - red). Böyük ehtimalla "rajiformers"in arxasından hücum edərkən onun tikanı üzünə batıb.

**Samirə**

## Ana çörək almağa getmişdi

### 6 aylıq körpə uşaq arabasından yıxılaraq ölüb



**6 aylıq körpə uşaq arabasından yıxılaraq həyatını itirib.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, hadisə Onatkutlar məhəlləsində ötən həftə baş verib. Aynur Ekici oğulları 8 yaşlı Eren Tunahanı və 6 aylıq Eymeni evdə qoyaraq çörək almağa gedib. Evdə qardaşı qalan Eymen hərəkət edərkən uşaq arabasından yıxılıb və başından ciddi zədə alıb. Evə gələn ana dərhal onu təcili yardımla xəstəxanaya aparıb. Reanimasiya şöbəsinə yerləşdirilən körpə həkimlərin bütün səylərinə baxmayaraq xilas ola bilməyib.

**Aynurə**

## Peşman deyil...

### Ata "Allah yolunda" deyib oğlunun başını kəsdi



**Türkiyənin Zonquldağın Çaycümə bölgəsində xəstəxana işçisi olan Yusif adlı bir ata "Allah yolunda qurban" verdiyini iddia edərək 16 yaşlı oğlunu bıçaqla ağır yaralayıb.**

Oğlunu Vəli kəndi yaxınlığındakı meşəyə aparan ata özü ilə gətirdiyi bıçaqla oğlunun boynunu kəsərək ona ağır xəsarət yetirib.

Bu hadisədən sonra o, polisə gedərək təslim olub. Hadisə yerinə gedən aidiyyəti qurumlar adıçəkilən şəxsin oğlunu yerdə qanlar içində tapıblar.

Polis tərəfindən nəzarətə alınan Yusif özünü də Allah yoluna qurban etdiyini, hətta qalstukla intihara cəhd etdiyini, ancaq qalstukun qırıldığına görə özünü öldürə bilmədiyini söyləyib.

Hadisədən bir gün sonra yuxusunda uşağını "Allah yolunda qurban" verməsini istənildiyini də polisə bildirib: "Oğlumu maşına mindirdim. Onu Allah yolunda qurban verəcəyimi söylədim. Oğlum qəbul etdi. Hadisə yerinə getdik. Polis bölməsinə gedib oğlumu öldürdüyümü söylədim. Peşman deyiləm. Oğlumu Allah yolunda qurban etdim".

Olaydan sonra o, məhkəmə tərəfindən verilən qərarla həbs olunub.

**Ağarza**




# "Rus yuxusu"cəzası

## Məhbəsdə yuxusuz saxlanılan məhkumlar bir-birini yeyiblər



**Bəşər tarixinin ən qorxunc təcrübələrindən biri İkinci Dünya Müharibəsi illərində Rusiyada baş tutub. "Rus yuxusu" adlanan qandonduran təcrübə hadisədən xəbər tutanları dəhşətə salıb.**




"Şərq" qəzeti Türkiyə mətbuatına istinadən xəbər verir ki, "rus yuxusu" təcrübəsi əsasən düşmən sayılan siyasi məhbuslara tətbiq edilib: "Təcrübə əsasında beş dustaq bir otağa qapadılıb və 30 gün ərzində yuxuya getmələrinə imkan verilməyib. Müvəffəq olanların sərbəst buraxılacağı da vəd olunub. Təcrübədən öncə otağa 30 günlük su və qida qoyulub. Bir də səslərini duymaq üçün mikrofon yerləşdirilib. Seçilmiş məhbusların yatmasının qarşısını almaq üçün otağa mütəmadi olaraq qaz və oksigen verilib. İlk 5 gün ərzində dustaqlar o qədər də narahatlıq hiss etməyiblər. Ancaq beşinci gündən sonra şikayətlər gəlməyə başlayıb. Təcrübənin doqquzuncu günü məhbuslar əsəblərini itirmiş vəziyyətdə sağa-sola hərəkət etməyə başlayıblar. Dustağın biri bərkdən çığırdığı üçün səs telləri parçalanıb. Digər məhbuslar isə yalvarmağa başlayıblar.

*(Davamı səh: 15-də)*

## Yolun kənarından daş tapdı

### 20 min dollara satışa çıxarıb




**Türkiyənin Ordu bölgəsində yaşayan Yaşar Aktaş yol kənarında tapdığı qara bir daşın meteorit olduğunu iddia edib və bu səbəbdən onu satışa çıxarıb.**

O, bölgəyə gedərək araşdırma apardığını və bu daşı tapdığını həmin anda oradan qaynaq edilən zaman gələn qoxunu hiss etdiyini deyib. Aktaşın sözlərinə görə, şənbə günü səmadan fişəngə oxşar yaşıl rəngli od parçası düşüb. Sonra da həmin cisim yerdə peyda olub. Gecə olduğu üçün həmin yerə gedə bilməyib. Səhəri axtarışa çıxaraq bu daşı tapıb:

"Düşünürəm ki, bu, göydən düşən meteorit parçasıdır" - deyə fikirlərinə əlavə edib. Qara daşı tapandan sonra onu internetdə satışa çıxarıb. Aktaş deyir ki, Trabzonda bu işi görən insanlar var və hətta kiçik bir parçası belə iyirmi min dollardır. Bu səbəbdən satışa çıxardığını və almaq üçün bəzi şəxslərin müraciət etdiyini də deyib.

**Aytac Ali**

## Məşhur aktrisanın cəsədi tapılıb



**Model, aktrisa, "Little Big" qrupunun keçmiş üzvü Anna Kastellanosun meyidi tapılıb.**

"Şərq" "Rambler. Ru" ya istinadən xəbər verir ki, hadisə 38 yaşlı modelin Sankt-Peterburqdakı mənzilində olub. Tanınmış aktrisanın meyitini ona kömək edən könüllülər tapıblar.

*Qeyd edək ki, Kastellanos bel ağrısı keçirmiş və çətinliklə ayağa qalxmışdı.*

**Kənan**